DÜŞÜNƏN İNSAN - Sentyabr 2013;
Elmi-kütləvi, mənəvi-psixoloji jurnal
Təsisçi və redaktor: Ziya Kazımov
Telefon: (077) 381 61 91; E-mail:admin@dusuneninsan.info
“Düşünən İnsan” jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.Qeydiyyat N 3418

# DÜŞÜNƏN İNSAN

# içindəkilər




| | |
|---|---|
| XXI əsr türk dünyası əsri olmalıdır | 2 |
| Elmi-texnoloji xəbərlər | 4 |
| İslam dünyasında keçən ay | 6 |
| Biomimetika | 8 |
| Sevgi Allah’ın insanlara verdiyi nurdur | 10 |
| Toxumdakı qeyri-adi güc: cücərmə | 28 |
| Din əxlaqının yayılmasında gənclərin əhəmiyyəti | 32 |
| Bir ayə, bir açıqlama | 35 |
| Qanadları olmadan uçan canlılar | 48 |
| Mükəmməl yaradılışdakı məqsəd | 53 |
| Gözəl sözün və gözəl üslubla danışmağın əhəmiyyəti | 56 |
| Fosillər təkamülü təkzib edir | 58 |
| Qütblərdə yaşayan balıqlar | 64 |





















# Prezident İlham Əliyev: "XXI əsr türk dünyası əsri olmalıdır"

«Azərbaycanın təşəbbüsü və dəstəyi ilə Türk Mədəniyyətinə Dəstək və Türk İrsinin Qorunması Fondunun yaradılması türkdilli ölkələrin mədəniyyətinə müsbət təsir göstərəcək". APA-nın məlumatına görə, bu fikirləri Qəbələ şəhərində keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sammitində çıxışı zamanı Azərbaycan prezidenti İlham Əliyev bildirib.

Türkdilli xalqların mədəniyyətinin təbliğində TÜRKSOY-un fəaliyyətini yüksək qiymətləndirən prezident xalqlarının bir-birini daha yaxından tanımasının vacibliyini vurğulayıb. Dövlət başçısı bu qurumun türk dünyasının birləşməsinə xidmət göstərdiyini deyib.

Prezident bildirib ki, bundan əvvəl Naxçıvanda keçirilən görüşdə türkdilli dövlətlər arasında əməkdaşlığın formatı müəyyənləşdirilib: «Beynəlxalq təşkilatlarda türkdilli ölkələr daim bir birinə dəstək olur. Bu da təbiidir. Çünki qardaş xalqlar bir birlərinə daim dəstək olmalıdırlar. BMT, İƏT və digər beynəlxalq təşkilatlarda bir çox hallarda eyni mövqedən çıxış edirik. Bu da bizim gücümüzü artırır».

Azərbaycan prezidenti ölkələrin uğurlu inkişafı üçün qarşıda duran məsələlərdən birinin də regional təhlükəsizlik olduğunu bildirib: «Bizim ölkələrimiz regional təhlükəsizlik məsələlərinə öz töhfələrini verirlər. Bu çox vacib məsələdir. Biz elə etməliyik ki bölgəmizdə sülh, əmin-amanlıq təmin edilsin. Əfsuslar olsun ki Azərbaycan uzun illərdir erməni işğalından əziyyət çəkir. Azərbaycan torpaqlarının 20 faizi işğal altındadır. Beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyümüz pozulub, xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılıb, bütün beynəlxalq hüquq






normaları pozulub. Dağlıq Qarabağ münaqişəsinin tezliklə beynəlxalq hüquq normaları çərçivəsində həlli regional təhlükəsizliyə töhfə olacaq. Bu münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır. Bu gün qəbul olunacaq bəyannamədə məhz bu prinsiplər əksini tapıb”.

Prezident həyata keçirilən və keçiriləcək birgə iqtisadi layihələrdən danışıb. İ. Əliyev bildirib ki, bölgədə nəhəng infrastruktur layihələrinin tikintisi Azərbaycanda başlayıb: «Tarixdə ilk dəfə olaraq Xəzər və Aralıq dənizi birləşdirilib. Azərbaycan artıq bizim qardaşlarımız, Xəzərin şərq sahilində yerləşən ölkələr üçün tranzit ölkə rolunu oynayır. Nəqliyyat infrastrukturunun yaxşılaşdırılması məqsədi ilə həm ikitərəfli, həm üçtərəfli formatda işlər həyata keçirilir. Onların sırasında Avropa və Asiyanı birləşdirən Bakı-Tiflis-Qars dəmir yolunu göstərə bilərəm. Bu dəmir yolu ölkələrimizə xidmət edəcək. Əminəm ki yaxın zamanlarda, gələn il bu layihənin istifadəyə verilməsini qeyd edəcəyik. Qədim İpək Yolunun bərpası reallıqdır».

Prezident digər islam ölkələri ilə müqayisədə türk dünyasında fərqli proseslərin getdiyini vurğulayıb: «Dünyanın müxtəlif yerlərində, əfsuslar olsun ki islam dünyasında vəziyyət fərqli istiqamətdə gedir. Qarışıqlar, vətəndaş müharibələri, xoşagəlməz hallar baş verir. Bizim türkdilli coğrafiyada isə inkişaf prosesi gedir. Bu, böyük sərvətdir. XXI əsr türk dünyası əsri olmalıdır. Biz bütün müsbət meyilləri gücləndirməliyik”.

# Elmi-texnoloji Xəbərlər



## Cücələr insandan daha tez saymağı bacarırlar

Cücələr insandan daha tez, üstəlik heç kim tərəfindən öyrədilmədiyi halda saymağı bacarırlar.

Bunu İngiltərənin Bristol Universitetinin professoru Kristina Nikol 20 il ərzində apardığı araşdırmalara əsasən bildirmişdir.

Belə ki, onun apardığı elmi təcrübələrə əsasən məlum olub ki, cücə yumurtadan çıxandan cəmi bir neçə saat sonra 5-ə qədər saya bilir. Təcrübə zamanı cücələri 2 yuvanın yanına yerləşdirmişdilər. Yuvanın birində çox, digərinə isə nisbətən az sayda yumurta qoyulmuşdur. Cücələr yumurtanın çox olduğu yuvanı seçmişlər. Hətta cücələri çaşdırmaq üçün yuvaların yerini və yumurtaların sayını belə dəyişmişlər, amma nəticə eyni olmuşdur – yenə də yumurtanın çox olduğu yuvanı seçmişlər.

Bununla yanaşı elmi təcrübələr zamanı məlum olmuşdur ki, cücələrin fizika üzrə də müəyyən bilgiləri vardır, belə ki, görüntü sahəsindən yoxa çıxmış obyektin mövcud olduğunu bilirlər. Halbu ki, bir yaşa qədər olan körpələr bunu bilmir. Amma cücələr artıq 2 həftəliyində Günəşə görə olduğu yeri müəyyən etmək qabiliyyətinə malik olurlar.

İngiltərənin Bristol Universitetinin professoru Kristina Nikol elmi təcrübələrin nəticələri haqqında bunları bildirmişdir: "Toyuqlar yəqin ki, böyük riyazi kəşflər etməyəcəklər və ədəbiyyat sahəsinə də bir töhfə verməyəcəklər, amma onlar aylar və illər ərzində vərdişlərə yiyələnən və bacarıqlarını inkişaf etdirən uşaqardan daha tez bunlara nail olurlar."

Bu barədə "The Daily Mail" xəbər verdi.



## Sirr genlərdə gizlidir

ABŞ-ın Kentukki Universiteti Biologiya və Onurğa ilə Beyin Zədələnməsi Tədqiqat Mərkəzindən olan tədqiqatçılar səməndərlərin quyruqlarının yenilənməsinə genetik kodların təsiri olduğunu irəli sürürlər. iO9 saytındakı xəbərə əsasən, 200-dən çox səməndərin quyruqlarının yenidən böyüməsini müşahidə edən və genomlarını müqayisə edən elm adamları quyruğun morfologiyası və inkişafında genetik amillərin rolu olduğunu müəyyən ediblər. Səməndərlərin orqan bərpa etmə qabiliyyəti üzərində tədqiqatlar aparan S.Randal Vosun (S.Randal Voss) rəhbərliyi altında aparılan və “PloS ONE” jurnalında bu yaxınlarda dərc olunan tədqiqatın nəticələrində: “Yara olan bölgədə yenidən çıxan quyruğun uzunluğu yeniləyici böyümədəki fərqləri üzə çıxarır”, - qeyd olunub. Quyruğun uzunluğu və eninin genetik faktorlardan asılı olduğu, əsas amilin “ambysex” adlanan cinsiyyəti müəyyən edən DNT-dəki nukleotidlərin düzülüşü olduğu bildirilib.

Tədqiqatın nəticələrinə dair məqalədə: “Səməndərlərin yeniləyici xüsusiyyətləri təqribən 300 ildir tədqiq olunsa da, bəzi mühüm suallar cavabsız qalmışdı”, - deyən tədqiqatçılar qeyd edirlər ki, yeniləyici böyümənin ardındakı amilin aşkar edilməsi üçün hüceyrələrin, toxumaların və molekulların kəmiyyət təsiri tədqiq olunmalıdır.

Əslində, elm adamlarının araşdırdığı sualın cavabı yaradılışdır. Uca Allah`ın yaratdığı bu canlıda Allah`ın yaratdığı bütün sistem və xüsusiyyətlərin hamısı eyni anda, tam şəkildə mövcud olmalıdır. Biri olmasa, həmin sistem işləməz. Bunu həmin canlının hüceyrələrinin DNT-sində şifrləyən həmin canlıya sonsuz yaratma gücü ilə istədiyi xüsusiyyətləri verən aləmlərin yaradanı olan uca Rəbbimizdir.



Düşünən İnsan, Sentyabr 2013

# İslam Dünyasında

## 13 ÖLKƏDƏ KEÇİRİLƏN SORĞUYA ƏSASƏN, TÜRKLƏR ƏN DİNDAR XALQDIR

Almaniyanın ən böyük, tanınmış "Bertelsmann" təşkilatının 13 ölkədə 14000 nəfər arasında keçirdiyi sorğuda özünü çox və ya olduqca dindar adlandıranların əksəriyyətinin türklər olduğu bildirilib.

Türkiyə, Almaniya, İngiltərə, İsveç, Fransa, İspaniya, İsveçrə, Kanada, ABŞ, İsrail, Hindistan, Braziliya və Şimali Koreyada keçirilmiş sorğuya ərəb ölkələri daxil edilməyib.

### Türkiyədən sonra Braziliya

"Bertelsmann" təşkilatının 5 ildən bir keçirdiyi "Din monitoru 2013" adlı sorğunun nəticələri "Amerikanın səsi" radiosunda yayımlanıb. Sorğu iştirakçılarına verilən: "Nə qədər dindarsınız?" -sualına türklərin 82%-i: "Çox", - və ya: "Olduqca dindar", - cavabını verib. Türklərdən sonra ən dindar ikinci xalq 74% səslə Braziliya, üçüncü yerdə isə 70% səslə Hindistan olub. ABŞ-ın 67%-i və almanların 57%-i özünü dindar adlandırıb. Sorğuda ən az dindar olanlar 31% səslə İsrail və 28% səslə İsveç olub. "Din təmsilçiləri siyasəti tənzimləməlidirmi?" - sualına ən çox: "Bəli", - deyən ölkə 28% səslə ABŞ olub. Almaniyada və Türkiyədə bu səs faizi 21% olub. "Ölkəni idarə edən siyasətçilər Allah`a inanmalıdırmı?" -sualına ABŞ-ın və türklərin 25%-i: "Bəli", - deyə cavab verib.

"Bertelsmann" təşkilatının nümayəndələri sorğu keçirilən ölkələrdə hökumət sistemi kimi demokratiyanın qəbul edildiyini, demokratiyanı ən yaxşı sistem adlandıran xalqların birincisinin 95% ilə İsveç, 82% ilə Türkiyə olduğunu bildiriblər.

## MÜSƏLMAN FUTBOLÇULAR İNGİLİS FUTBOLUNU DƏYİŞDİRİR

Premyer Liqası 1992-ci ildə başladıqda liqada bircə müsəlman futbolçu var idi: "Tottenhem" futbol klubu ispan futbolçusu Nayim.

İngiltərə liqasından hal-hazırda 40 müsəlman futbolçu var və bu futbolçular oyun mədəniyyətini ciddi şəkildə dəyişdirir. 5 fevral, 2012-ci il tarixində "Nyukasl Yunayted" futbol klubunun "Aston Villa" ilə oynadığı maç müsəlman futbolçuların premyer liqası mədəniyyətinə təsirini göstərmək üçün mühüm səbəb oldu. 30 dəqiqə sonra Demba Banın atdığı qolun ardınca müsəlman Ba və seneqallı futbolçu Papis Sisse künc bayrağının yanına gedib səcdə etmişdilər.

Keçən il "Nyukasl"dan ayrılaraq Çelsi ilə müqavilə imzalayan Demba Ba kimi bacarıqlı futbolçular dini inanclarının onlar üçün çox vacib olduğunu dedikdə futbol klubları onlara anlayışla yanaşırlar. Klub rəhbərləri də müsəlman futbolçuların ehtiyaclarını anlayıb təmin etməkdə istəklidirlər. Müsəlman futbolçulara halal qidalar və ibadət vaxtı imkanı verilir.

# Keçən Ay

## HƏBSXANADA DİNƏ ÜZ TUTANLARIN SAYI ARTIR

Almaniyanın Geldern həbsxanasındakı müsəlman məhkumların sahur üçün qazan tələbi yerinə yetirilib. Qazanları təhvil alan həbsxana keşişi Hans Gerd Paus həbsxanadakı bir çox gəncin dinə üz tutaraq unudulmağa və tənhalığa qarşı güc topladığını deyir. Məhkumların ailələrinə və yaxınların səslənən keşiş: "Gənclərin əksəriyyəti unudulduqlarına görə kədərlənirlər", -deyib. Onlar üçün təsis edilmiş ibadətxanada namaz qılma imkanına qovuşan məhkumlar Ramazan ayında da oruc tutmaq üçün bəzi istəklərini bildirmişdilər. Bundan xəbər tutan Krefelddə uzun illər xidmət göstərən "Hatex" firması məhkumların qazan tələbini yerinə yetirəcəyini bildirib. "Hatex" rəhbərlərindən Hüseyn Asan 25 ədəd qazanı Geldern həbsxanasının keşişi Hans Gerd Pausa təslim edib.

Həftənin altı günü səkkiz saat həbsxanada dini xidmət verən Paus keçən illərdə də məhkumlar üçün kilsə xəzinəsindən aldığı pullarla qazan aldığını bildirərək: "Məhkumlar yeməklərini burada çətin şəraitdə, konserv qutularında bişirirdilər. Müsəlman məhkumlar üçün yeməkxanada axşamdan iftar üçün yeməklər yarıbişmiş veriləcək. Məhkumlar verdiyimiz plitələr və yeni qazanlarla öz kameralarında yeməklərini bişirə biləcəklər. Bu şəkildə sahurda da isti yemək yeyə biləcəklər", - deyib.



## ÇİNDƏ İLK TƏRAVİH NAMAZI

Çinin paytaxtı Pekinin mərkəzindəki Nanşiapo məscidində toplanan müsəlmanlar namazdan sonra salavatlarla mübarək ayı qarşılayıblar. Havanın yağışlı və isti olmasına baxmayaraq, hər yaşdan olan müsəlmanlar məscidləri doldurub və Ramazan ayı məscidlərdə dua və salavatlarla qarşılanıb. Məscidin imamlarından An Sunhu Ramazan ayında müsəlmanların həmrəylik və birlik duyğusunun gücləndiyini vurğulayaraq: "Bu mübarək ayda dinimizin hökmlərini yerinə yetirəcəyik", - deyib. An bu gün ilk təravih namazını qıldıqlarını bildirərək: "Havaların yay aylarında isti olmasına baxmayaraq, Allah`ın bizdən gözlədiyi vəzifələri etməliyik", - deyib.

Çində Ramazan ayı mövzusunda danışan An İslamı daha yaxşı başa düşmək, tolerantlıq və əlaqələr qurmaq, müsəlmanların özlərini təkmilləşdirməsi, ölkədəki bütün müsəlman azlıqlar arasında əlaqə və ünsiyyət çatışmazlığını aradan qaldıraraq münasibətləri möhkəmləndirmək kimi mövzulara toxunub.

Geniş coğrafiyaya malik ölkədə təqribən 16-17 saat oruc tutulacaq. Çində müsəlmanlar xüsusilə mübarək günlərdə birlikdə olmağa böyük əhəmiyyət verir və bu günləri mümkün qədər birlikdə keçirməyə çalışırlar. Ölkədə müsəlmanlar Ramazana kütləvi şəkildə hazırlaşır, iftarları məscidlərdə kütləvi şəkildə açmağa çalışırlar.

Düşünən İnsan, Sentyabr 2013






**BİOLOJİ KOMPYUTER ÜÇÜN İLK ADDIM ATILIB**

Alimlər elektronlarla işləyən kompyuterləri bioloji formaya keçirmək istəyirlər. Amerikalı tədqiqatçılar kimyəvi reaksiyalar vasitəsilə məlumat saxlayan və əməliyyatlar yerinə yetirən bioloji kompyuterlər icad etmək üçün elmi fəaliyyətə başlayıb.

Kompyuterlər daxil olmaqla, bir çox elektron cihaz elektronların axınını təmin edən tranzistorlarla işləyir. ABŞ-da tədqiqatçılar isə tranzistorları genetik məlumat daşıyan nuklein turşuları olan DNT və RNT-dən düzəldərək kompyuter sahəsində inqilab etməyə hazırlaşırlar.

Tədqiqat uğurla nəticələnsə, bioloji kompyuterlər silikondan hazırlanmış kompyuterlərdən tamamilə fərqli olacaq. Monitoru və klaviaturası olmayan bioloji kompyuterlər kompyuterdən daha çox yan-yana düzülmüş kiçik maye qutucuqları xatırladır.

Maye qablarında eynilə elektron kompyuterlər kimi işləyən kimyəvi maddələr, zülallar və digər bioloji elementlər yerləşəcək.

"The Guardian" qəzetinin verdiyi xəbərə görə, bioloji kompyuterlərdən, əvvəlcə, xəstəliklərin müalicəsində istifadə edilən dərmanların reaksiyasını sınaqdan keçirmək üçün istifadə ediləcək. Gələcəkdə isə məlumat saxlanması və s. kimi əsas kompyuter funksiyalarını da yerinə yetirəcək.

**Hüceyrədaxili hərəkətlər müşahidə olunacaq**

Tranzistorlar kompyuterlərdə elektron axınını, beləcə, kompyuterdə əsas informasiya vahidləri olan iki şifrin (0 və 1) əmələ gəlməsini təmin edir. İki tranzistorun birləşdirilməsi ilə əmələ gələn məntiq portu kompyuterlərin riyazi əməliyyatları idarə etməsini təmin edir. Adi kompyuterin

# Biomimetika

prosessorunda milyonlarla tranzistor var.

ABŞ-ın Stenford Universitetində biomühəndislik sahəsində tədqiqatlar aparan Cerom Bone və tədqiqat qrupu DNT və RNT-dən istifadə edərək məntiq portlarını kimyəvi reaksiyaları keçirmək üçün yararlı hala salmaq istəyir.

Hüceyrələrin hər hansı dərmanın zərərinə məruz qalıb-qalmadığı və ya dərmanın hüceyrələrə yayılıb-yayılmadığını bioloji tranzistorlarla müəyyən etmək olar. Beləliklə, hüceyrələrin müəyyən dərmanı qəbul etdikdə bölünməyə başlaması və ya bölünməni dayandırması kimi proseslərə nəzarət etmək mümkün olacaq.

Tranzistorların radiosiqnalları gücləndirdiyi kimi, Bone və tədqiqat qrupunun hazırladığı bioloji tranzistordan da müəyyən zülalı şifrləyən xüsusi genləri gücləndirmək üçün istifadə olunacağı bildirilib.

Hüceyrələrin idarə edilməsini asanlaşdıracaq bu metod biotexnologiyanın elmdə daha çox yer tutması üçün də mühüm pillə ola bilər.



Düşünən İnsan, Sentyabr 2013





# SEVGİ ALLAH'IN İNSANLARA VERDİYİ NURDUR

- Müsəlmanların sevgi anlayışı necədir?
- Sevgisizliyin vurduğu maddi və mənəvi zərərlər nələrdir?
- Cənab Adnan Oktar səmimi sevginin Allah'ın möminlərə xas neməti olduğunu necə açıqlamışdır?

Kainatdakı bütün gözəllikləri yaradan gözəlliyin və mükəmməlliyin əsl sahibi olan Allah'dır. İnsana zövq verən hər incəlik Allah'ın üstün gözəlliyinin yaratdığı varlıqlardakı təcəllisidir. Ruhun bu gözəlliklərdən zövq almasının və daima gözəllik axtarmasının səbəbi isə Rəbbimizin insanı yaradarkən onun ruhuna ilham etdiyi sevgiyə həssaslıqdır. Digər insanlardakı təqdirəlayiq mömin xüsusiyyətlərinin fərqinə varmaq və bunlara daha gözəl şəkildə qarşılıq vermək kimi insanı digər canlılardan fərqləndirən bir çox üstün əxlaqi xüsusiyyət insanın sevməyə və sevilməyə həssaslığına görə formalaşır.

İnsanın ruhundakı sevmə və sevilməyə meyillilik bəzi insanlarda digərlərinə görə daha güclüdür. İnsanların bir qismi varlıqlardakı sevilməyə layiq xüsusiyyətləri dəqiq müəyyən edir və bu xüsusiyyətlər onların ruhuna dərin zövq

verir. Sevgi, şəfqət və coşqu meydana gətirən cəhətləri görməyən və ya bunlara laqeyd qalan insanlar isə daha donuq və soyuqqanlı olurlar. Başqa sözlə, insandakı sevgiyə həssaslıq insanın əhval-ruhiyyəsi və əxlaqı ilə birbaşa əlaqədardır. Ona görə, sevgini qavrama və hiss etmə forması insanın səmimi iman gətirməsinə və imanın təsiri ilə xoşxasiyyət, şəfqətli, mərhəmətli, ağıllı və etibarlı olmasına səbəb olur.

## Allah müsəlmanlara dərin sevgi anlayışı vermişdir

Allah insanı bütün digər varlıqlardan fərqli olaraq ruh sahibi kimi yaratmışdır. Ona görə, insanın ruhundakı zənginliklə əlaqədar olaraq qarşı tərəfə təsiri də dəyişir. Hər insan ruhunun gözəlliyi nisbətində sevir. Özündə nə qədər çox sevilməli və hörmət edilməli xüsusiyyət varsa, insanlar onu o qədər sevib hörmət edirlər. Eyni şəkildə, o da insanlara bu cür sevgi və hörmətlə yanaşır.

Qısaca desək, dünyadakı bütün varlıqlara sevgi bəsləyir, ancaq dərin sevgini yalnız ruh sahibi olan insana qarşı hiss edir.

Sevgi Allah'ın insanlar üçün yaratdığı, həm dünyada, həm də axirətdə nəfsin ən çox xoşuna gələn nemətlərdən biridir. Sevgi axtaran və ən gözəl sevgini qazanmaq istəyən hər insan bu gözəl duyğunun əhəmiyyətini anlamalıdır. Sevgi olmadan dostluq, yoldaşlıq, sirdaşlıq, sədaqət, etibar kimi xüsusiyyətlərə tam nail olmaq olmaz. Bu cür sevgini insanlara qazandıracaq yeganə xüsusiyyət isə ancaq imandır. Dərin Allah sevgisi, Allah qorxusu, Quran əxlaqı ilə yaşamaqda qətiyyət insanların bir-birinə həqiqi sevgi bəsləməsinə səbəb olur. İman olmadan insanların başqalarına bəslədiyi sevgi ancaq fiziki xüsusiyyətlərinə, maddi imkanlarına və dünyəvi mövqelərinə bağlı olur. Bunlardan hər hansı biri əldən çıxarsa, sevgi hesab edilən duyğular da dərhal yox olur. İmandan qaynaqlanan sevgidə isə, Allah'ın izni ilə, insanların həyatının sonuna qədər davam edən nemətin qapısı açılır. Allah Quranda sevgi nemətini iman gətirənlər üçün yaratdığını belə bildirir:

***İman gətirib yaxşı işlər görənlər üçün ər-Rəhman bir sevgi yaradacaq. (Məryəm surəsi, 96)***

## Sevgisizlik maddi və mənəvi cəhətdən zərər verir

Əsl sevginin mənbəyi Allah'dan qorxmaq və Ona dərin sevgi bəsləməkdir. Çünki ancaq Allah'dan qorxan və buna görə, Onun istəmədiyi əxlaqdan cidd-cəhdlə çəkinən insan sevilməyə layiq ola bilər. Allah'dan layiqincə qorxan insan nəfsinin oyunlarına və pisliklərinə qarşı həmişə diqqətli olur. Çünki Quranda hz. Yusufin (ə.s) sözlərinin bildirildiyi ayədəki kimi, insanın nəfsi dayanmadan onu pisliyə çağırır. ***Mən nəfsimi təmizə çıxartmıram. Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla, nəfs pis işlər görməyi əmr edər... (Yusuf surəsi, 53)***

Allah qorxusu olmayan və ya Allah'dan layiqincə qorxmayan, Allah'ın ölümdən sonra dünyadakı əməllərinə görə insanları mühakimə edəcəyini qulaqardına vuran və nəfsinin istəyinə boyun əyən kəs isə pislik etməkdə hədd tanımır. Nəfsin hədsiz-hüdudsuz pislik təlqin etdiyi, onu təmizləyən möminlərin nicat tapdığı, onun təlqin etdiyi pisliklərə əməl edənlərin isə ziyan tapacağı Quranda belə bildirilir:

***Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini öyrədənə (and olsun), nəfsini təmizləyən mütləq nicat tapmışdır! Onu (günaha) batıran isə ziyana uğramışdır. (Şəms surəsi, 8-10)***

Nəfslərinə tabe olaraq iman gətirməyən və sevgisiz qalmış bu insanlar həyatları boyu özlərinə və ətraflarına həm maddi, həm də mənəvi cəhətdən zərər verirlər. Çünki:

- Sevgisiz insanlar dünyada özləri üçün mümkün olduqca çox mənfəət əldə etməyə, istəklərini təmin etməyə, dünyadakı qısa həyatı məsuliyyətsiz yaşamağa çalışırlar.
- Uşaqlarına lazımi sevgi və diqqət göstərməyən valideynlər, ətraf mühitin mənfi təsiri ilə ata-anasına layiqincə hörmət bəsləməyən

uşaqlar bu əxlaqi degenerasiyanın açıq-aşkar nümunələridir. Uşaqlar valideynlərinə aqressiv olur, tərs cavab verir, rahatlıqla yalan danışır, öz zövq və istəklərinə nail olmaq üçün ailəsini sadəcə bir vasitə görürlər.

• Fədakarlıq, həmrəylik, comərdlik kimi dəyərlər tamamilə aradan qalxır. Hər şeydən əvvəl, insanlar bir-birlərinə insan kimi dəyər vermirlər.

• Heç kim başqasının sağlamlığını, rahatlığını düşünmür. İnsanlara ziyan dəyməsindən narahat olmur, buna mane olmağa çalışmır.

• Dayanmadan pisliyi əmr edən nəfsinə qarşı sərhəd çəkməyən insana güvənmək olmaz. Belə bir insan verdiyi sözə sadiq qalmaz, çünki bu insanın sözündən dönməməsi üçün heç bir səbəb yoxdur.

• Sevgiyə həssaslıq hissindən məhrum olan insan qarşısındakı insanın təbii acizliklərini görməməzliyə vuraraq nəzakətsiz davranır, ən adi səhvlərinə belə səbir etmir. Hətta səhv belə sayılmayan hadisələrə görə dava edir. Çünki bu cür insanlar üçün öz rahatlıqları əsasdır və kefsiz olduqda sevdiyini iddia etdiyi insanların belə xoşbəxt olmasını istəmir.

İnsanların bir çoxu öz rahatlığını düşünür. Ancaq əsl sevgidə insan öz nəfsini unudur və sevdiyi insanın rahatlığını ön plana çəkir. Onu rahatlatmaq üçün əlindən gələni edir. Həmişə sevdiyi insanın istəklərini öz istəklərindən üstün tutur. Məsələn, birlikdə gördükləri işə görə özünün deyil, sevdiyi insanın təriflənməsi onun üçün vacibdir. Özü haqlı çıxmaqdansa, sevdiyinin haqlı çıxmasından zövq alır. Əgər zəhmətli iş varsa, sevdiyinin yorulması əvəzinə özünün yorulmağını üstün tutur. Əsla qarşı tərəfi utandıran, alçaldan, incidən hərəkətlər etməz. Bir insan ancaq Allah'ın rizasını qazanmaq üçün qarşısındakı insanı bu qədər fədakarcasına və səmimi sevər.

## İnsanın nəfsini təmizləməsinin əhəmiyyəti

İnsanı yaradan Allah ona Öz ruhundan üfürdüyünü (Səcdə surəsi, 9) və insanın yer üzündə Özünün xəlifəsi olduğunu (Ənam surəsi, 165) bildirir. İnsanı digər canlılardan fərqləndirən ən əsas xüsusiyyətlərdən biri nəfsi və vicdanı ilə birlikdə yaradılmasıdır. Hər insanda pisliyi əmr edən nəfs və pislikdən necə çəkinəcəyini ilham edən vicdan var. İnsan vicdanının ilham etdiyi sevgi, fədakarlıq, mərhəmət, təvazökarlıq, şəfqət, doğruluq, dürüstlük, sədaqət, nəzakət və xeyirxahlıq kimi gözəl xüsusiyyətlərlə yanaşı, nəfsindən gələn mənfi xüsusiyyətlərə də malikdir. Ancaq inanclı insan vicdanı sayəsində doğru ilə yanlışı bir-birindən ayıra bilir və həmişə gözəl əxlaqı seçir. Allah'a olan güclü imanı və qorxusu, axirətin varlığına inancı, əbədi cəhənnəm əzabından qorxusu və cənnət həyatına həsrəti onu nəfsinin azğınlığından



uzaqlaşdırır. İnsanlarla gözəl davranır, bağışlayır, pisliyə yaxşılıqla qarşılıq verir, ehtiyac içində olana kömək edir, mərhəmətlidir, sevgi doludur, şəfqətli və anlayışlıdır.

## Cəmiyyətdəki sevgi çatışmazlığı böyük bəladır

Cəmiyyətin qayda-qanunları insanları günahdan və pis əxlaqdan ancaq müəyyən yerə qədər çəkindirə bilir. Dövlət ictimaiyyətə açıq yerləri, küçələri və mərkəzi bölgələri təhlükəsizlik qüvvələri ilə qismən qoruya bilər, asayişi təmin edə bilər, güclü ədliyyə sistemi sayəsində cinayətləri azaltmaq üçün lazımi tədbirləri görə bilər. Ancaq hər insana iyirmi dörd saat nəzarət etmək mümkün olmadığına görə, müəyyən yerdən sonra insan vicdanı ilə davranmalıdır. Vicdanını dinləməyən insan təkbaşına və ya özü kimi düşünən insanlarla birlikdə ikən rahatlıqla cinayət törədə bilər. Belə hallarda, lazım gəldikdə yalana əl atan, haqsız qazanc əldə etməkdən çəkinməyən, məzlumu incitməkdən narahat olmayan fərdlərdən ibarət cəmiyyət modeli ortaya çıxar. Allah qorxusunun olmadığı, mənəvi dəyərlərin itirildiyi cəmiyyətdə fiziki tədbirlərin nəticə verməyəcəyi aydındır. Halbuki, insan təkbaşına olsa da, etdiyi pisliyə görə heç kim onu cəzalandırmasa da, din əxlaqı onu pislikdən çəkinməyi əmr edir. Etdiyi hər hərəkətə, verdiyi hər qərara, dediyi hər sözə görə Allah qatında mühakimə ediləcəyini və əbədi axirət həyatında əməllərinin əvəzini alacağını bilən insan pislikdən hər vəchlə çəkinər.

İnsanların öz istəkləri ilə pislikdən çəkindiyi cəmiyyətdə terror təşkilatlarının və sevgisiz insanların səbəb olduğu zülm olmaz. Çünki din əxlaqının hakim olduğu cəmiyyətdə zülm tərəfdarı olan insanların ortaya çıxmasına səbəb olan problemlər də aradan qalxar. Cəmiyyət dürüstlük, fədakarlıq, sevgi, şəfqət, ədalət kimi yüksək mənəvi dəyərlərə malikdirsə, bu cəmiyyətdə yoxsulluq, qeyri-bərabər gəlir, ədalətsizlik, haqsızlıq, məzlumun əzilməsi, azadlıqların məhdudlaşdırılması kimi xüsusiyyətlərə də rast gəlinməz. Əksinə, ehtiyac içində olanların ehtiyaclarının təmin edildiyi, varlının yoxsulu yedirdiyi, güclünün zəifi qoruduğu, səhiyyə, təhsil, nəqliyyat kimi sosial imkanlardan hamının ən yaxşı səviyyədə faydalandığı, müxtəlif etnik qruplar, dinlər və mədəniyyətlər arasında anlayışın hakim olduğu cəmiyyət formalaşar. Məhz buna görə sevgi və sevginin gətirdiyi gözəl əxlaq bir çox ictimai problemin həllidir. Bu əxlaqın mənbəyi isə Allah'ın insanlara rəhbər kimi göndərdiyi Qurandır.

## Əsl sevgi Quran əxlaqı ilə qazanılır

Allah'a könüldən bağlanan, Allah'ı çox sevən insan Onun yaratdığı bütün gözəlliklərə sevgi bəsləyər, bir çiçək, kəpənək, quş, pişik və ya gözəl mənzərə belə insanın qəlbində coşqu oyadır. Eyni şəkildə, xoşxasiyyət, gözəl insan da qəlbdə səmimi heyranlıq oyadır. Çünki insanın bütün bu gördükləri Allah'ın təcəlliləridir. Allah'a bəslənən coşqun sevgi Onun sonsuz gözəlliyinin, sənətinin, ağlının və gücünün təcəlli etdiyi hər şeyə qarşı insan ruhunda təbii sevgi və məhəbbət meydana gətirir. Ona görə, Allah'a könüldən bağlanan şəxslər əsl sevgini hiss edən yeganə insanlardır.

Quran əsl sevginin mənbəyini təşkil edir. Çünki bir insanı əxlaqı, şəxsiyyəti və mənəvi xüsusiyyətləri ilə dərindən sevmək ancaq insanın Quran əxlaqına tabe olması ilə mümkündür. Qurana tabe olan bir

insan Allah'ın bəyəndiyi əxlaqla yaşayır, bir çox sevilməli gözəl xüsusiyyət qazanır. Allah'ın "... Daimi olan yaxşı işlər isə Rəbbinin yanında savab etibarilə daha xeyirli, nəticə etibarilə daha yaxşıdır!" (Məryəm surəsi, 76) hökmünü bilərək bütün gözəl əxlaqi xüsusiyyətlərini səbirli və qətiyyətlə davam etdirər. Ancaq Allah qorxusu və Quran əxlaqı ilə yaşadıqda vəfa, sədaqət, hörmət, sevgi, təvazökarlıq, fədakarlıq, dürüstlük, anlayış, mərhəmət, mülayimlik, cəsarət, qətiyyət kimi xüsusiyyətləri davam etdirmək olar. Bu davamlılıq möminin sevgidə də ömür boyu səbirli və qətiyyətli olmasına səbəb olar. Sevginin təməli iman, Allah qorxusu və Quran əxlaqına əsaslandığına və Allah rizası üçün sevdiyinə görə möminin sevgisi çox güclü və dərin olur. İman gətirənlərlə dostluğunun axirətdə də əbədiyyən davam edəcəyini bilməsi sevgini güclü, daimi edən başqa səbəbdir.

Qurana tabe olan insanın üstün əxlaqı onu həm Allah qatında, həm də möminlərin gözündə çox dəyərli varlığa çevirir. Qurana tabe olan təqvalı mömin hər şeydən əvvəl Allah'ın sevgisini və razılığını istəyir. Allah sevdiyi qulunu digər möminlərə də sevdirir, ona Öz qatından nur, gözəllik verir və insanların qəlblərinin ona isinməsinə səbəb olan xüsusiyyətlər bəxş edir. Quranda Allah'ın sevgini möminlərə nemət kimi bəxş etdiyi belə xəbər verilir:

***İman gətirib yaxşı işlər görənlər üçün ər-Rəhman bir sevgi yaradacaq. (Məryəm surəsi, 96)***

Cənab Adnan Oktar səmimi sevginin Allah'ın möminlərə xas neməti olduğundan bəhs edir

ADNAN OKTAR: "Məryəm" surəsinin 96-cı ayəsində Allah, şeytandan Allah'a sığınıram: "İman gətirib yaxşı işlər görənlər üçün ər-Rəhman sevgi yaradacaq", - deyə buyurur. Allah "Məryəm" surəsinin 96-cı ayəsində çox güclü, qeyri-adi, insanların bilmədiyi, dərin sevgi verəcəyini bildirir. Bizim sevgimizin səbəbi də budur. İman gətirmişik və yaxşı işlər görürük. Allah da bizə lütf edir, qəlbimizdə dərin sevgi yaradır. Bu sevgi möcüzədir.

"Şura" surəsinin 23-cü ayəsində, şeytandan Allah'a sığınıram, iman gətirib yaxşı işlər görən qullarına Allah'ın müjdə verdiyi budur. Əvvəlcə iman olmalıdır. Yaxşı işlər görən, səmimi şəkildə yaxşı işlər görən qullarına Allah'ın verdiyi müjdə. "De: "Mən sizdən bunun müqabilində sevgidən başqa bir şey istəmirəm". Peyğəmbərimiz deyir. Yəni təbliğ edirəm, İslamı yayıram. Deyirlər ki: "Bizdən nə istəyirsən? Məqsədin nədir?" "Mən sizdən ancaq sevgi istəyirəm", - deyir. "Allah'ın təcəllisi kimi məni sevin". Möminlərin bir-birlərini sevməsinin səbəbi Allah rizasıdır.

Allah "Məryəm" surəsinin 13-cü ayəsində buyurur: "Üstəlik, Öz tərəfimizdən şəfqət və paklıq da (bəxş etdik)..." Müsəlman çox təmiz olur. Həm də sevgiyə həssas, şəfqətli olur. Sevgiyə həssas olmaq nə deməkdir? Sevgidə həssaslıq var. Allah qeyri-adi sevgi duyğusu bəxş edir. Qeyri-adi həssaslıq bəxş edir. Mömin həm sevilmək, həm də sevmək istəyir. Allah bu gücü peyğəmbərlərə verir. "Üstəlik, Öz



tərəfimizdən bir şəfqət və paklıq da (bəxş etdik)..." İmanda iki əlamət olur. Mömin həm çox təmiz, həm də sevgi dolu olur. Allah iki cəhətə diqqət çəkib. (6 oktyabr 2012-ci il, A9 TV)

## İttihadi-İslam ancaq sevgi ilə mümkündür

Uca Allah Qurani-kərimdə İslam əxlaqını yer üzünə hakim edəcəyini bildirmişdir. Peyğəmbərimiz (s.ə.v) də hədislərində bu böyük, mübarək hadisəyə axırzamanda hz. Mehdinin (ə.s) vəsilə olacağını xəbər vermişdir. Quran əxlaqının tələbinə uyğun olaraq və Peyğəmbərimizin (s.ə.v) də bildirdiyi kimi, İslam əxlaqı sevgi ilə hakim olacaq. İslam əxlaqının hakim olması ilə yer üzü əmin-amanlıq və təhlükəsizliyə qovuşacaq, hər cür qarışıqlıq, qarşıdurma, anarxiya və terror sona çatacaq. Axırzamanın qarışıqlıq və zülmündən sıxıntı çəkən insanlar İslam əxlaqını yer üzünə hakim edən hz. Mehdinin (ə.s) ədalətindən, mərhəmətindən, comərdliyindən, sevgisindən və diqqətindən razı qalacaqlar.

Axırzamanda hz. Mehdinin (ə.s), Allah'ın izni ilə, mütləq zühur edəcəyi Peyğəmbərimizin (s.ə.v) hədislərində belə müjdələnmişdir:

***Dünyada bir gün qalsa da, (qiyamət qopmadan) Allah o günü uzadacaq, adı adıma, atasının adı atamın adına uyğun, əhli-beytimdən bir şəxs (hz. Mehdi) mütləq gələcək, daha əvvəl zülm və haqsızlıqla dolu olan yer üzünü ədalət və insafla dolduracaq. (Ebu Davud ve Tırmizi / Büyük Hadis Külliyatı, Rudani 5-ci cild, səh. 365)***

Hədislərdə bildirildiyinə görə, hz. Mehdi (ə.s) axırzamanda zühur edəcək və İslam əxlaqını yer üzünə hakim edəcək. Hz. Mehdinin (ə.s) zühur etməsi ilə yer üzündəki zülm və haqsızlığa son qoyulacaq, dünyada ədalət, sülh, sevgi və əmin-amanlıq bərqərar olacaq. Bu müqəddəs hadisələr də bir hədisdə belə xəbər verilir:

***".. Bu əmir (hz. Mehdi (ə.s)), insanlar yer üzünü daha əvvəl zülmlə doldurduğu kimi, yer üzünü ədalətlə dolduracaq. Artıq sizdən kim o günə çatarsa, qar üstündə sürünərək də olsa, onlara qoşulsun". (Sünen-i İbni Mace Kitabü-lfiten Tercümesi ve Şerhi- Kahraman Neşriyat, cilt 10, Mütercim: Haydar Hatipoğlu, Bab: 34; səh. 347)***

## Sevginin mənbəyi Allah sevgisidir

Möminlərin insanlara qarşı qəlblərindəki sevginin əsl mənbəyi Allah'a olan dərin sevgiləridir. Əks təqdirdə, əsl sevgi olmaz. Bir insana bəslənən sevgini Allah'ın yaratdığını, hər şeydə Allah'ın təcəlli etdiyini bilmək insana sevgidə dərinlik qazandıran əsl səbəbdir.

## Əsl sevgini müxtəlif şəkildə ifadə etmək olar

Səmimi sevgidə insan hər an sevdiyi insanlara bu hisslərini daha əvvəl heç işlətmədiyi, bir-birindən təsirli sözlərlə ifadə edə bilər. Hər biri digərindən fərqli olar. Çünki insan hər an bu coşqunu qəlbində yaşayır.

## Sevgidə qarşılığı ancaq Allah'dan gözləmək lazımdır

Həqiqətən, sevən insan sevdiklərini şövqləndirər. Onları dünyada və axirətdə zərər gələn şeylərdən çəkindirər. Onların yaxşılığı, rahatlığı, təhlükəsizliyi üçün səmimi şəkildə cəhd edər. Ən əsası, sevgisi müəyyən şərtlərə bağlı deyil. Qarşılıq gördükdə sevgi göstərən insan isə həqiqi mənada sevginin nə olduğunu bilmir. Əsl sevgidə qarşılıq ancaq Allah'dan gözlənilər. Əsl məqsəd Allah'ın rizasını qazanmaqdır.

## Sevgi gözəl əxlaq və xarakterdən asılı olaraq formalaşır və getdikcə dərinləşir

Əsl sevgidə qarşıdakı insanın gözəlliyini, maddi imkanını, etibarını itirməsi əsla vacib deyil. Əsas olan onun əxlaqı və xarakteridir. İnsanlar bir-birlərinin şəfqət, mərhəmət, comərdlik, incə düşüncəli olma, fədakarlıq kimi gözəl xüsusiyyətlərinə şahid olduqca sevgiləri qat-qat artır.Tədricən insanların şəxsiyyətinin formalaşması, əxlaqının gözəlləşməsi və davranışlarının mükəmməlləşməsi ilə sevgi də dərinləşir. Əsl sevgidə əsla bezmə və sıxılma olmaz.





# ELMİ TƏDQİQATLAR

# QƏDƏRİ SÜBUT EDİR

Bir atom zərrəciyinin harada və hansı sürətlə hərəkət edəcəyini 43 saniyə əvvəldən müəyyən edən model hazırlamış fizika üzrə Nobel mükafatı laureatı, hollandiyalı fizik Cerard Hoft (Gerard`t Hooft) qədəri (tale) elmi cəhətdən sübut edib. Qədər Allah`ın bütün keçmiş və gələcək hadisələri bilməsidir. "Baş verməmiş hadisələr" bizim üçün baş verməyib. Allah isə zaman və məkandan asılı deyil, çünki bütün bunları yaradan uca Rəbbimizdir. Odur ki, Allah üçün keçmiş, gələcək və indi eynidir və hamısı olub-bitib. Bu, təkcə təbiət hadisələri, doğum, ölüm, xəstəlik və ya müharibələr kimi hadisələrlə məhdudlaşmır. İnsanın öz həyatı və hərəkətləri ilə bağlı ən kiçik təfərrüat da qədərində müəyyən edilmişdir. Allah Quranda insanların başına gələn hər şeyin əvvəlcədən bir kitabda yazıldığını belə bildirir:

**Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin. (Allah) onların qərar tutduqları yeri də, qorunub saxlanıldıqları yeri də bilir. (Bunların) hamısı açıq-aydın kitabdadır. (Hud surəsi, 6)**

## Qədərin elmi sübutu

Bu mövzu ilə bağlı elmi tədqiqatın nəticələri Amerikanın məşhur "New Scientist" elmi jurnalında manşet oldu. Cerard Hoft yenicə





bitirdiyi 10 illik tədqiqat nəticəsində qədər anlayışını konkret elmi dəlillərlə sübut edib və elm dünyasında böyük əks-səda doğurub. Tədqiqatın digər diqqətçəkən cəhəti isə qədər məfhumuna qarşı çıxan elm adamlarının bu günədək əsaslandığı nəzəriyyəni təkzib etməsidir. Hoft tədqiqat çərçivəsində bir zərrəciyin harada və hansı sürətlə hərəkət etdiyini eyni anda müəyyən etmək imkanı verən model hazırlayıb. Hoft bir atomun 43 saniyə sonra necə hərəkət edəcəyini əvvəlcədən müəyyən etməyi bacarıb. "New Scientist" tərəfindən dünyanın ən yaxşı riyaziyyatçıları hesab edilən Con Konveylə (John Conway) Saymon Koçen (Simon Kochen) tədqiqatı "azad iradə məfhumunun ölümü" adlandırırlar. Prinston Universitetində çalışan Konvey belə deyir:

"Əgər Hoft kimi bir insan atomun mövqeyi və hərəkətini eyni anda müəyyən edə bilirsə, üstün zəkaya malik bir varlıq kainatdakı bütün zərrəciklərin qarşılıqlı təsirini izləyə bilir. Başqa sözlə, azad iradəmizlə etdiyimiz seçimlərin qeyri-müəyyənliyinin ardında müəyyənedici bir nizam var".

Koçen isə mövzunu belə bir misalla izah edir:

"Qarşınızda bir dilim şokoladlı, bir dilim də çiyələkli pirojna olduğunu düşünün. Şokoladlı pirojnanı yeməyə başladıqda bunun öz seçiminiz olduğunu düşünürsünüz. Halbuki, şokoladlı pirojnanı yeyəcəyiniz artıq bəlli idi. Biz azad olduğumuzu düşünürük. Əgər Hoftun modeli doğrudursa, onda azadlığımız məhdud bir illüziyadan ibarətdir".

## Qədəri anlamağın əhəmiyyəti

Uca Rəbbimizin Quran ayələri ilə bizə bildirdiyi, yuxarıdakı tədqiqatın nəticəsinin də göstərdiyi kimi, qədər açıq-aydın həqiqətdir. Bu mühüm həqiqətdən uzaq yaşayan insanlar həyatları boyu daima narahatlıq və qorxu içində ikən, qədərə iman gətirən və həyatını bu həqiqət əsasında yaşayan insanlar çox rahatdırlar. Məsələn, qədəri düşünmədən yaşayan insanlar uşaqlarının gələcəyi üçün təvəkkülsüzlük edərək narahat olurlar. Hansı məktəbdə oxuyacağı, hansı peşəyə yiyələnəcəyi, sağlamlığının necə olacağı, necə həyat yaşayacağı ilə bağlı daima narahatçılıq və sıxıntı keçirirlər. Əlbəttə, bu məsələlərdə qədəri unutmadan müxtəlif tədbirlər görmək, planlar qurmaq normaldır. Ancaq unutmaq olmaz ki, hər insanın hələ bir hüceyrə halında olduğu vaxtdan ilk dəfə oxuma-yazma öyrəndiyi ana, universitet imtahanında verdiyi cavablardan həyatı boyu hansı şirkətdə nə iş görəcəyinə, hansı sənədləri neçə dəfə imzalayacağına, hansı gün hansı yeməyi yeyəcəyinə, hansı gün harada və necə öləcəyinə qədər hər dəqiqəsi Allah

dərgahında bəllidir. Bu hadisələrin hamısı Allah`ın sonsuz hafizəsində mühafizə olunur. Məsələn, hal-hazırda, bir insanın rüşeym halı, uşaq bağçasındakı halı, universitetdəki halı, 35 yaşını qeyd edən anı, işə başladığı ilk günü, öldükdə mələkləri gördüyü an, yaxınları tərəfindən dəfn edildiyi və axirətdə Allah`ın hüzurunda sorğu-sual olunduğu anlar bircə an kimi Allah dərgahında mövcuddur. Elə isə hər anı Allah`ın dərgahında yaşanmış, görülmüş və uca Allah`ın hafizəsində hazır duran bir həyat üçün narahat olmaq, qorxmaq, kədərlənmək və onu özü cəhd edərək dəyişdirəcəyini düşünmək böyük qəflətdir. Bir insan nə qədər cəhd etsə də, nə övladının, nə də yaxınlarının Allah dərgahında hazır olan həyatını dəyişdirə bilər. Elə isə ağıllı və vicdanlı insan bu həqiqəti qavrayaraq Allah`a və Allah`ın yaratdığı qədərə könüldən təslim olmalıdır.

## Qədər Allah`ın sonsuz elminin və qüdrətinin təcəllisidir

Bir insanın bütün həyatını bir film lenti kimi qəbul edək. Biz bu lentə videokasetdən baxırıq və kaseti önə çəkmək imkanımız yoxdur. Uca Rəbbimiz isə eynilə bu film lentində olduğu kimi, bütün həyatımızı eyni anda görür və bilir. Bu filmi bütün təfərrüatı ilə müəyyən edib yaradan da məhz Odur. Biz bir xətkeşin başını, ortasını və sonunu bir kadrda görə bildiyimiz kimi, Allah bizim asılı olduğumuz zamanı əvvəlindən sonuna qədər bir an kimi ehtiva etmişdir. İnsanlar isə ancaq vaxtı çatdıqda bu hadisələri yaşayıb Allah`ın onlar üçün yaratdığı qədərə şahid olurlar. Dünyadakı bütün insanların da qədəri belədir. Bu günə qədər yaradılmış və bu gündən sonra yaradılacaq bütün insanların dünyada və axirətdəki həyatının hər anı Allah`ın dərgahında hazır və yaşanmış şəkildə mövcuddur. Allah`ın sonsuz hafizəsində milyardlarla insanla birlikdə bütün canlıların, planetlərin, bitkilərin, əşyaların qədərində yazılmış hadisələr də heç bir çatışmazlıq olmadan və itmədən durur. Qədər Allah`ın Hafiz (mühafizə edən, qoruyan) isminin, sonsuz böyüklüyünün, güc və qüdrətinin təcəllilərindən biridir.

Qədər kiçik-böyük, hər hansı fərq olmadan bütün hadisələrin, hərəkət və qərarların əvvəlcədən müəyyən edilməsidir. Qədərinizdə çay içmək varsa, çay içəcəksiniz, çərəz yemək varsa, çərəz yeyəcəksiniz. Seçim etdikdə sizə verilən seçmək hissinə görə özünüz seçdiyinizi düşünürsünüz. Həyatınız boyu buna bənzər saysız-hesabsız seçim edirsiniz. Doğumunuz, keçirəcəyiniz xəstəliklər, evliliyiniz və ya ölümünüz Allah dərgahında bəllidirsə, edəcəyiniz seçimlərin də hamısını Allah`ın istəyi ilə edirsiniz. Seçimləriniz Allah dərgahında siz seçmədən əvvəl məlumdur.



## Yanlış qədər anlayışına diqqət!

Bir mühüm məsələni qeyd etməliyik: yanlış qədər anlayışından çəkinmək lazımdır. Bəzi insanlar: "Necə də olsa, qədərimdə nə varsa, o olacaq, onda mənim bir şey etməyimə ehtiyac yoxdur", -deyərək yanlış qədər anlayışını mənimsəyirlər. Yaşadığımız hər şeyin qədərimizdə müəyyən olunduğu dəqiq faktdır. Biz həmin hadisəni yaşamazdan əvvəl o, Allah dərgahında baş vermişdir və həmin hadisə ilə bağlı bütün təfərrüatlar Allah dərgahındakı Lövhi-məhfuz adlı kitabda yazılıdır. Ancaq Allah hər insana sanki hadisələri dəyişdirmək, öz qərar və seçimləri ilə hərəkət etmək imkanı varmış kimi hiss verir. Məsələn, insan su içmək istədikdə: "Qədərimdə varsa, içəcəm", -deyərək oturub gözləməz. Bunun üçün ayağa qalxar, stəkan götürər və su içər. Həqiqətən də qədərində müəyyən edilmiş stəkanda, müəyyən edilmiş miqdarda su içər. Ancaq bunları edərkən öz iradəsi və istəyi ilə etdiyini hiss edər. Həyatı boyu hər hərəkətində və işində bu hissi duyar. Allah`a və Allah`ın yaratdığı qədərə təslim olmuş insanla bu həqiqəti qavramayan insan arasındakı fərq budur. Allah`a təslim olan insan özü edirmiş kimi hiss keçirsə də, bunların hamısını Allah`ın istəyi ilə etdiyini bilir. Digəri isə hər etdiyini öz ağlı və gücü ilə etdiyini zənn edərək yanılır.

Məsələn, bir xəstəliyi olduğunu öyrənən Allah`a təslim olmuş insan bunun qədərində olduğunu bildiyinə görə, çox təvəkküllü davranır. "Allah bunu qədərimdə yaratdığına görə, mütləq xeyir var", -deyə düşünür. Ancaq necə də olsa, qədərində sağalmaq varsa, sağalacağını deyərək tədbir görmədən gözləməz. Əksinə, həkimin yazdığı müalicənin, qəbul etdiyi dərmanların nə qədər təsirli olacağının, sağalıb-sağalmayacağının hələ o dünyaya gəlmədən əvvəl qədərində müəyyən edildiyini bilir. Kiçik-böyük hər hadisəni Allah`ın bildiyi və bir kitabda yazıldığı ayələrdə belə xəbər verilir:

**Sən nə iş görsən, Qurandan nə oxusan, nə iş görsəniz, onlara daldığınız zaman Biz sizə şahid olarıq. Yerdə və göydə zərrə qədər bir şey sənin Rəbbindən gizli qalmaz. Ondan daha böyük, daha kiçik elə bir şey də yoxdur ki, açıq-aydın kitabda olmasın! (Yunis surəsi, 61)**

**Yer üzündə baş verən və sizin öz başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, bir kitabda yazılmamış olsun. Bu, Allah üçün çox asandır! (Hədid surəsi, 22)**





# XRİSTİANLAR: "İSA MƏSİH ALLAH`IN TƏCƏLLİSİDİR", - DESİNLƏR

Dövrümüzdə bəzi xristianların inandığı üçləmə və üçlü birlik inancı çox ciddi yanılma, Allah`a və hz. İsaya (ə.s) böyük iftira olmaqla yanaşı, eyni zamanda, ciddi təhlükədir.

Bəzi xristian qardaşlarımız, əslində, tək Allah`a iman gətirdiklərini, hz. İsanı (ə.s) Allah`dan ayrı varlıq kimi qəbul etmədiklərini (Allah`ı tənzih edirik) deyərək bir varlığın bədən, ruh və şüur kimi üç müxtəlif şəkildə təcəlli etdiyini iddia edirlər. Lakin bu açıqlamanın özündə ciddi ziddiyyət və yanlışlar var.

## Tövhid inancı tədricən təhrif edilmişdir

Müqəddəs torpaqlarda yaşayan yəhudilər arasında meydana gələn xristianlıq dini hz. Musanın (ə.s) şəriəti ilə yaşayan səmimi yəhudilərin hz. İsaya (ə.s) tabe olması ilə vüsət almışdır. Hz. İsaya (ə.s) tabe olan yəhudilərin xüsusiyyəti isə Allah`a bir və tək varlıq olaraq iman gətirmələridir. Ancaq tövhid inancı hz. İsanın (ə.s) göyə yüksəldilməsi və xristianlığın bütpərəst bölgələrdə yayılmasından sonra dəyişmiş, hz. Musanın (ə.s) şəriətinin əsası olan tövhid inancı böyük dəyişikliyə məruz qalmışdır. Xristianlıq dininə sonradan daxil edilən üçləmə inancına görə, hz. İsa (ə.s) (Allah`ı tənzih edirik) ilah hesab edilməyə başlamışdır. Həmin dövrdəki xristianlar Allah`ın zatının hz. İsada (ə.s) bir insan kimi vücud aldığını iddia etməyə başlamış və bu yanlış inancı yaymışdılar.

## İncildəki "Allah`ın oğlu" ifadələri sevgi ifadə edir

Üçləmə inancı – Allah`ı tənzih edirik – "ata, oğul və müqəddəs ruh"dan ibarət olan üçlü Allah inancı mənasını verir. Xristianlığı təhrif etmək istəyən müxtəlif şəxslər həmin dövrün Roma imperatoru Konstantinin rəhbərliyi və dəstəyi ilə özlərinə dəlil kimi Tövrat və İncildəki "Allah`ın oğlu" sözlərini götürmüş və bundan istifadə etmişlər. Halbuki, Tövrat və İncildə işlədilən "Allah`ın oğlu" sözləri bütün iman gətirənlərin Allah`ın sevimli qulları olduğunu ifadə edir.

Matta İncilində bu həqiqət "Nə bəxtiyardır sülhyaradanlar! Çünki onlar Allah`ın övladları adlanacaq" (Matta, 5:9) ifadəsi ilə açıq-aydın izah edilmişdir. Hz. İsaya (ə.s) aid edilən bu ifadə də eyni mənanı daşıyır, İncildəki "oğul" sözü Allah`ın





sevimli qulu mənasındadır, Allah`ın həqiqi oğlu (Allah`ı tənzih edirik) mənasını qətiyyən vermir. Xristianlığa sonradan əlavə edilmiş və tövhid inancını təhrif etmək məqsədi daşıyan bu yanlış, təhlükəli inanc tədricən xristianlığın ən əsas şərtinə çevrilmiş və hətta bu batil inanca tabe olmayanlar dindən çıxmış hesab edilmişlər. Bu yanlış inanc üçləməni müdafiə edən bəzi rahiblərin rəhbərliyi altında bir növ təzyiq və zorakılıq yolu ilə cəmiyyətə qəbul etdirilmiş, xirstianlıq dininə zorla daxil edilmişdir. Üçləmə inancına qarşı çıxanlar ciddi cəzalandırılmış, ölkələrindən sürgün edilmiş, hətta öldürülmüşdür.

Hz. İsa, əlbəttə, Allah`ın sevimli quludur, lakin o, acdıqda yemək yeyən, su içən, yorulduqda dincələn, yatan və yaradılmış hər varlıq kimi ehtiyacları olan bir insandır. Bu həqiqət İncildə bir çox hissədə bildirilmiş həqiqətdir. Eyni şəkildə, Allah Quranda da hz. İsanın (ə.s) bütün digər insanlar kimi ehtiyacları olan, imtahan edilən bəşər olduğunu xəbər vermişdir:

**Məryəm oğlu Məsih ancaq bir elçidir, ondan əvvəl də elçilər gəlib getmişlər. Onun anası isə sidq ürəkdən inanan bir qadın idi. Hər ikisi də yemək yeyirdi. Bax gör, ayələrimizi onlara necə bəyan edirik, sonra da gör onlar necə döndərilirlər. (Maidə surəsi, 75)**

Üçləmə inancının səbəb olduğu dinsizlik təhlükəsinin nə qədər böyük ideoloji və qanlı qarşıdurmalara yol açdığını xristianlığın tarixindən də görmək mümkündür. Məlum olduğu kimi, bu qarışıqlıqlar dövrümüzə qədər davam etmişdir. Haqq inancın bu qədər böyük qarışıqlıq və fitnə mənbəyi olması mümkün deyil. Bəzi xristianlar bu böyük təhlükənin ölçüsünü indiyə qədər dəyərləndirməyə bilərlər. İncilin hökmü adı altında fərqinə varmadan atalarından qalmış inancı davam etdirirlər. Ancaq bu inanc dərhal tərk edilməlidir, çünki Allah`ın əmrinə tamamilə ziddir. İncilə ağılla baxdıqda və batil bir inancın səbəb olduğu fitnə-fəsadı gördükdə bunu çox yaxşı anlayacaqlar. Ona görə, səmimi xristianları Allah`a sığınaraq, bütün təlqinlərdən zehinlərini təmizləyərək düşünməyə və bu mövzuda vicdanla qərar verməyə dəvət edirik.

## Səmimi xristian qardaşlarımızın Allah`ın qüdrətini və böyüklüyünü təqdir etməsi və təbliğ etməsi şərtdir

Əməlisaleh xristianlar səmimi olmalı və bir insana ilahlıq vəsfi verməyin Allah`ın adətullahı, hz. İsanın (ə.s) gətirdiyi xristianlıq dininin, İncil və Tövratın hökmlərinə zidd olduğunu, eyni zamanda, ağıl və məntiqə zidd olduğunun anlamalıdırlar. Haqq İncilə əsrlər sonra əlavə edilmiş belə bir inancın ciddi təhlükə olduğuna ehtimal verməli və bunun üzərində dərin düşünməlidirlər. Allah`ın üstün vəsflərini bir insana aid etməyə çalışmağın və acizliklərlə yaradılmış bir insanı ilahlaşdırmağın nə mənası və faydası var? Şübhəsiz ki, uca Allah`ın buna ehtiyacı yoxdur (Allah`ı tənzih edirik). Bu, ALLAH`IN QÜDRƏTİNİ VƏ BÖYÜKLÜYÜNÜ LAYİQİNCƏ TƏQDİR ETMƏMƏK DEMƏKDİR.

Bütün bunlardan başqa, uca Allah`ın yer üzündə insan kimi zatı ilə zühur etməsi fikrini xristianlar da qəbul etməməlidirlər. Bunu uca Allah`ın şanına yaraşdırmamalıdırlar. Allah`ın böyüklüyü, ucalığı, ululuğu, qüdrəti və sonsuz gücü xristianlar üçün bir nemətdir. Sonsuz güc sahibi olan Allah`a inanmaq daha gözəldir, yoxsa yatan, yemək yeyən, ehtiyacları olan bir insanı ilahlaşdırmaq? Əlbəttə, bunun cavabını bütün xristianlar dərhal görəcəklər. Allah`ın Öz üstün zatını insanlara tanıtmaq üçün yer üzündə ölümlü, ehtiyacları olan varlıqda zühur etməyə ehtiyacı yoxdur (Allah`ı tənzih edirik). Xristian qardaşlarımız İncilə ağılla yanaşmalı və bütün bunları Allah`ın şanına yaraşdırmamalıdırlar.

Hz. İsanın (ə.s) insani keyfiyyətlərə malik olması, əlbəttə, onun peyğəmbər kimi dəyərini düşürmür. Hz. İsa (ə.s) uca Rəbbimizin dəyərli, mübarək peyğəmbəridir. Allah`ın qatında bütün digər peyğəmbərlər kimi ən yüksək, ən müqəddəs yeri tutur. Allah`ın sevimli dostu, uca peyğəmbəridir.

## Bir və tək olan Allah`a iman gətirmək hər qulun yeganə mühüm vəzifəsidir

Allah insanlardan Ona şərik qoşmadan iman gətirməyi və qulluq

etmələrini istəyir. İnsanların qulluq etməsi üçün Allah`ın yer üzündə insan şəklində zühur etməsinə ehtiyac yoxdur. Xristian qardaşlarımız, həqiqətən, bu mövzuya səmimi yanaşmaq istəyirlərsə, özlərinə bu sualı verməlidirlər: Allah`ın hz. İsada (ə.s) zatı olaraq təcəlli etməməsi uca Allah`ın vəsflərindən nəyi əskildər? (Allah`ı tənzih edirik). İnsanda Allah`ın zatı kimi təcəlli etməmək Allah`ın vəsflərini, üstünlüyünü, gözəlliyini əskiltməz. Əksinə, bu, Allah`ın gözəlliyinə gözəllik qatar, Onun üstün vəsflərinin daha yaxşı, layiqincə təqdir edilməsinə səbəb olar. Ölümlü, yatan, yemək yeyən, acizliklər və ehtiyaclar içində olan bir insana Allah`ın zatı kimi təcəlli yaraşdırdıqdan sonra Allah`ın üstün vəsflərini necə layiqincə təqdir etmək olar? Əlbəttə, belə bir şey mümkün deyil.

Bəzi xristianlar Allah`ın bir insanda haşa ilah kimi təcəlli etməsinin Allah`a qovuşmaq, yaxınlaşmaq və dua etmək üçün bir vasitə olduğunu iddia edirlər. Lakin bu anlayış da Allah`ın böyüklüyünü və qüdrətini layiqincə təqdir etməməkdən qaynaqlanır. Uca Allah`ın yaratdığı insanlara yaxınlaşmaq üçün vasitələrə ehtiyacı yoxdur, ALLAH HƏR YERDƏDİR. Allah bizə ŞAHDAMARIMIZDAN DA YAXINDIR (Qaf surəsi, 16). Allah İncildə də bunu xəbər vermişdir:

***Siz onlara bənzəməyin! Çünki Allah`ınız nələrə ehtiyacınız olduğunu siz Ondan diləməzdən əvvəl bilir. (Matta, 6:8)***

***Allah`dan gizli heç nə yoxdur. Lakin Onun gözləri qarşısında hər şey çılpaq və açıq-aşkardır. Biz Ona hesabat verəcəyik. (İbranilərə məktub, 4:13)***

***Çünki elə gizli bir şey yoxdur ki, (Allah qatında) aşkara çıxmayacaq və elə örtülü bir şey yoxdur ki, bilinib aydın olmayacaq. (Luka, 8:17)***

## Allah gizlinin gizlisini bilir, heç nəyə ehtiyacı yoxdur

Uca Allah qəlbimizdəki hər şeyi, gizlətdiklərimizi də, üzə vurduqlarımızı da bilir. Allah gizlinin gizlisini biləndir. Ağlımızdan keçən fikirləri, niyyətimizi, istəklərimizi hər an görür və eşidir. Allah`dan gizli heç nə yoxdur. Allah Quranda xəbər vermişdir: **"...aşkara çıxartdığınızı və gizli saxladığınızı bilirəm". (Bəqərə surəsi, 33)**

Uca Allah bu həqiqəti İncildə də xəbər vermişdir:

***Çünki göylərdə və yerdə olan, görünən və görünməyən hər şey – taxtlar, ağalar, başçılar, hakimlər Onda yarandı. Nə varsa, Onun vasitəsilə və Onun üçün yarandı. Hər şeydən əvvəl var olan Odur və hər şey Onda bərqərar olur. (Pavlusdan kolosselilərə məktub, 1:16-17)***

***Amma sən dua etdiyin zaman öz otağına gir və qapını örtüb gizlində olan Allah`a dua et. Gizlində olanı görən Allah səni mükafatlandıracaq. (Matta, 6:6)***

***Beş sərçə iki qara pula satılmırmı? Onlardan biri belə Allah`ın qatında yaddan çıxmır. Sizin başınızdakı saçlar belə sayılıb... (Luka, 12:6-7)***

Ona görə, Allah`a yaxınlaşmaq üçün insanın içindən səmimi dua etməsi kifayətdir. İnsan harda olsa da, Allah onu mütləq eşidir, görür və duasına qarşılıq verir. Allah hər yeri əhatə etmişdir. Hər an bizimlə birlikdədir. Ona görə, xristianların bu iddiası – haşa Allah`ın göydə olması, hz. İsada (ə.s) zatı ilə təcəlli edərək insanlara yaxın olması – Allah`ın qüdrətini layiqincə qavrayıb anlamamaqdan irəli gələn səhvdir.

Hər şeyi yaradan, hər şeyə və hər yerə hakim olan Rəbbimiz var. Allah`ın izni ilə, hz. İsa (ə.s) yenidən qayıdıb və çox yaxında tanınacaq. Hz. İsanı (ə.s) bütün xristianlar sevəcək. Hər şey xristianların lehinə olarkən bu məcburi izahlara nə gərək var? Allah`ı insan kimi səciyyələndirməyin xristianlığa nə faydası var? Əksinə, Allah bu izahlar ilə Quranda: **"Bundan az qaldı göylər parçalansın, yer yarılsın və dağlar yerindən qopub uçsun" (Məryəm surəsi, 90)** - deyə xəbər verir. Xristianlar ağılla dəyərləndirməli, Allah`ın uca qüdrətinə yaraşan din anlayışını mənimsəməlidirlər. İncildə olmayan, məcburi yolla insanlara qəbul etdirilmiş, Allah`ın şanına yaraşmayan izahın gərəksiz olduğunu görməlidirlər. Allah`ın Özünə övlad götürməyə, insanlara yaxınlaşmaq



üçün vasitələrə ehtiyacı yoxdur (Allah`ı tənzih edirik). Allah insanla qəlbi arasındadır, ona şahdamarından da yaxındır. Allah göydə, yerdə, insanın yaşadığı, gördüyü, görmədiyi hər yerdədir. Səmimi xristianlar Allah`ın şanını layiqincə təqdir etməli, bu cür məntiqsiz, gərəksiz izahlardan Allah`ın razı olmadığını bilməlidirlər.

## Üçləmə inancı xristian qardaşlarımızı şirk təhlükəsinə aparır

Həm İncilə, həm də Tövrat və Qurana əsasən, Allah`a ortaqlar qoşmaq şirkdir. Ona görə, səmimi xristianlar üçləmə inancı ilə fərqində olmadan hz. İsanı (ə.s) Allah`a ortaq qoşaraq (Allah`ı tənzih edirik) bu böyük şirk təhlükəsinin içinə düşürlər. Bu şirk təhlükəsi barmaqarası baxılacaq məsələ deyil.Şirk Allah qatında böyük günahdır. Allah Quranda bu günahı edənlərə qarşı belə xəbərdarlıq edir:

**Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa (günahları) isə dilədiyi kimsəyə bağışlayar. Allah`a şərik qoşan kəs iftira atmaqla böyük bir günah etmiş olur. (Nisa surəsi, 48)**

## Allah İncildə də xristianlara şirki qadağan etmişdir:

*Fani olmayan Allah`ın izzətini fani olan insana, quşlara, dördayaqlılara və sürünənlərə bənzəyən bütlərlə əvəz etdilər. (Allah`ı tənzih edirik) Onlar Allah`ın həqiqətini yalanla əvəz etdilər, Yaradanın yerinə yaradılışa səcdə və ibadət etdilər; (Allah`ı tənzih edirik) o Yaradana əbədi alqış olsun! Amin. (Pavlusdan romalılara məktub, 1:23, 25)*

## Hz. İsa (ə.s) gəldikdə xristianları yanlış üçləmə inancından xilas edəcək

ADNAN OKTAR: *Quranda bir ayə var. Şeytandan Allah`a sığınıram. "Həqiqətən, Allah dərgahında din İslamdır" (Ali-İmran surəsi, 19). Bir din İslam kimi dindirsə, doğrudur. Ancaq xristianlıqda təslis (üçləmə) inancı var. Təslis inancını Allah Quranda lənətləyir. Allah`ı üçləyirlər, belə inanc olmaz. Bu, tövhid inancına ziddir. "Allah birdir" deyilməlidir. "Allah birdir" deyilməsi çox vacibdir. Üçləmə inancı ilə xristianlar çox yanılırlar, böyük səhv edirlər. Hz. İsanın (ə.s) nüzul etdikdə bütü sındırıb, donuzu öldürməsi rəvayətinin mənası budur. Yəni təslis inancını ləvğ edəcək və batil inancları aradan qaldıracaq, halal-haramı Quran əsasən tənzimləyəcək.*

(Cənab Adnan Oktarın 31 yanvar 2009-cu il tarixli Çay TV-də canlı yayımlanan müsahibəsindən)





# TOXUMDAKI QEYRİ-ADİ GÜC: CÜCƏRMƏ



Toxumların çox qeyri-adi bir xüsusiyyəti var. Toxumlar aid olduqları bitkinin hər budağına, hər yarpağına, bu yarpaqların sayına, quruluşlarının necə olacağına, qabığının nə rəngdə və hansı qalınlıqda olacağına, qida və su daşıyan borularının genişliyinə, sayına, bitkinin uzunluğuna, meyvə verib-verməyəcəyinə, verəcəksə, bu meyvələrin dadlarına, qoxularına, quruluşlarına, rənglərinə dair bütün məlumatlara sahibdirlər. Toxumlar bütün bu məlumatları milyonlarla il saxlayır və sonrakı nəsillərinə heç bir qüsur və əskiklik olmadan ötürürlər. Bu möcüzəvi hadisəyə yaxından şahid olmaq üçün evlərimizdəki tərəvəzləri, meyvələri və çiçəkləri araşdırmağımız kifayətdir.

## Torpağın yarılması

Başdan-başa bir möcüzə olan toxum yer üzünə cücərmə ilə çıxır. Cücərmə kiçik bir toxumun torpağı yarması deməkdir. Toxumun, üzərindəki ağır torpaq kütləsini yararaq zoğ verməsi insanın üzərindəki yüzlərlə kiloluq bir örtüyü heç çətinlik çəkmədən deşib keçməsinə bənzəyir. Bəs toxumun torpaqdan bu möcüzəvi şəkildə çıxması necə reallaşır? Kiçik bir toxum torpağı yaracaq



qüvvəti haradan tapır? Yetkinləşən bir toxum dərhal cücərmir. Toxumun cücərməsi üçün lazımi istilik, rütubət və oksigen kimi bir çox amilin bir yerdə olması gərəkir. Bu şərtlər bir yerə gəldikdə, yuxu halındakı toxum canlanmağa başlayır. Bir toxumun cücərməsi üçün, əvvəlcə, suya ehtiyacı var. Çünki yetişmiş toxumlardakı maddələr mübadiləsinin aktiv hala gəlməsi, yəni böyümə prosesinin başlaya bilməsi üçün hüceyrədə sulu mühit olmalıdır. Bu ehtiyac toxumların islanması ilə qarşılanır. Toxumdakı maddələr mübadiləsinin fəaliyyətə keçməsi ilə birlikdə kök və zoğ da böyüyür və hüceyrədə bölünmə prosesi başlayır.

Bu mərhələdə isə mütləq oksigenə ehtiyac var. Toxum oksigenli tənəffüslə enerji və istilik istehsalına başlayır. Çünki yeni yaranan bitkinin böyüyə bilməsi üçün enerjiyə ehtiyac var. Lakin toxumun hələ kökləri yoxdur. Başqa sözlə, torpaqdakı mineralları alacaq vəziyyətdə deyil. Bəs bu vəziyyətdə toxum böyüməsi üçün lazım olan qidanı necə əldə edir?

## Toxumun içindəki möcüzəvi qida anbarı

Hələ kök salmamış toxum torpaqdakı mineralları qəbul edə bilmir. Hər şeyi qüsursuz yaradan Allah toxumun içinə kökləri inkişaf edənə qədər onu qidalandıran bir qida anbarı yerləşdirmişdir. Bu qida anbarı toxumun bütün ehtiyaclarını qarşılayır. Toxumlar bir bitki olaraq öz qidalarını istehsal etməyə hazır olana qədər vücudlarındakı bu ehtiyat qidaları istifadə edirlər.

Toxum cücərmədən əvvəl yuxu halında olur. Toxumun yuxu halında qalmasını təmin edən isə bəzi bitki hormonlarıdır. Toxum isladıldıqda embrion hüceyrələrindəki fermentlər fəaliyyətə keçərək yeni bir hormon ifraz etməyə başlayırlar. Bu hormon yuxu vəziyyətinə son qoyur və böyümə fermentləri fəaliyyətə keçir. Toxumun içində şəkər yaranır və beləcə, toxumun cücərməsi üçün lazım olan enerji təmin edilmiş olur.

Bir toxumu torpağa atdıqda bütün bunlardan insanların xəbəri olmur. Bir neçə gün sonra o toxumun cücərməsinə və yavaş-yavaş bitkiyə çevrilməsinə təbii mərhələ olaraq baxırlar. Halbuki, bir toxumun cücərməsi üçün olduqca həssas proseslər böyük bir uyğunluq içində reallaşmalıdır. Ağırlığı qramlarla ölçülən bir toxum üzərindəki ağır torpağı yarıb yuxarı çıxarkən heç bir çətinlik çəkmir. Toxumun tək məqsədi torpağın üstünə çıxıb işığa çatmaqdır. Cücərməyə başlayan bitkilər incə gövdələri ilə sanki üzərilərində torpağın ağırlığı yoxmuş kimi rahatlıqla gün işığına doğru istiqamət alırlar. Toxumdan çıxan hər çıxıntı hara getməli olduğunu bilir. Zoğlar torpağın üstünə, günəşə doğru irəliləyərkən, köklər də torpağın dərinliklərinə doğru yol alaraq torpaqdakı mineralları toplamağa başlayır.

Toxumdakı bu dayanıqlılıq və güc aləmləri yaradan, üstün güc sahibi Allah'ın əsəridir.

**"Əkdiyinizi gördünüzmü? Onu siz bitirirsiniz, yoxsa Biz bitiririk? Əgər Biz istəsəydik, onu bir saman çöpünə döndərər, siz də heyrətə gələrdiniz". (Vaqiə surəsi, 63-65)**



# DİN ƏXLAQININ YAYILMASINDA GƏNCLƏRİN ƏHƏMİYYƏTİ

Yaşadığımız dövr insanların Quran əxlaqını öyrənməyə və möminlərin təbliğ fəaliyyətlərinə həmişəkindən də artıq ehtiyac hiss etdikləri dövrdür. Bu dövrə ən böyük töhfəni verəcək insanlar, şübhəsiz ki, səmimi iman gətirən gənclərdir. Çünki gənclik insanın Allah`ın rizasını qazanmaq və İslama xidmət etmək üçün ən məhsuldar dövrüdür. Quranda adı çəkilən peyğəmbərlərin və onlarla birlikdə iman gətirənlərin böyük əksəriyyətinin gənclər olması bunun açıq-aydın dəlilidir. Bu mübarək insanlar nə qədər gənc olsalar da, Allah`a iman gətirərək kamilləşmiş və məsuliyyət şüuru ilə hərəkət edərək daima Allah`ın izni ilə bir çox insanın imanına səbəb olmuşlar.

Əxlaqı və həyatı ilə bütün möminlərə nümunə olmuş dəyərli İslam alimi İmam Rəbbani: "Biz quluq. Sahibimizin əmrindəyik. Nəzarətsiz deyilik. Hər istədiyimizi etməkdə sərbəst deyilik. Yaxşı düşünək! Uzaqgörən ağıl sahibləri olaq! Qiyamət günü utanmaqdan, peşman olmaqdan başqa heç nə əldə edə bilmərik. Gənclik dövrü qazanc vaxtıdır. Mərd olan bu vaxtın qiymətini bilib əldən qaçırmaz. Qocalıq hər kəsə nəsib olmaz. Nəsib olsa da, əlverişli vaxt ələ düşməz" ("Məktubat", 73-cü məktub) -deyərək müsəlmanlar üçün Allah qarşısında vəzifələrini gənclik dövründən etibarən yerinə yetirməyin əhəmiyyətini vurğulamışdır.

Ancaq din əxlaqı ilə yaşamayan cəmiyyətdə formalaşmış fikrə əsasən, gənclik illəri məsuliyyətsiz, nəzarətsiz keçirilən və ya sadəcə insanların yaşlılıq dövrünü zəmanətə aldıqları, təhsillərini tamamlayıb karyera qurduqları dövrdür.

Əlbəttə, insan həyatında bütün bunlar təbii olaraq gənclik dövründə edilir. Ancaq gənclik illəri, əslində, yaşlılıq dövrü üçün deyil, axirət həyatı üçün çalışılmalı dövrdür. Odur ki, fiziki və əqli cəhətdən sağlam olan, enerjili, gümrah gənclik illəri İslam alimi İmam Rəbbaninin də xatırlatdığı kimi, insanların din əxlaqına ən çox xidmət edəcəyi,



dərk edərək, dərin düşünərək nemətlərə şükür edəcəkləri çox dəyərli illərdir.

Gənclik, eyni zamanda, insanın şəxsiyyətinin formalaşdığı, yaxşı və pis vərdişlərin qazanıldığı dövrdür. Bu dövrdə insanlar din əxlaqı ilə yaşamayan cəmiyyətdə kök salmış vərdişlərə, düşüncə tərzinə hələ tam alışmırlar. Şəxsiyyətin formalaşma mərhələsində olduqlarına görə, uca Allah`ın hidayət verməsi ilə Allah`ın əmr və qadağalarına uyğun ən gözəl əxlaq modelini mənimsəyə və bunu ömürlərinin sonuna qədər davam etdirə bilərlər. Məhz bu səbəblərə görə, uca Allah Quranda da bildirdiyi kimi, mübarək qullarına gənc yaşlarında din əxlaqını təbliğ etmək vəzifəsini və peyğəmbərliyi vermişdir.

## Gənc yaşda peyğəmbərlik verilən mübarək şəxslər

Quranda Allah`ın gənc yaşlarında elçilik vəzifəsi ilə şərəfləndirdiyi mübarək şəxslərdən biri hz. İbrahimdir. Bütləri ilahlaşdıran (Allah`ı tənzih edirik) müşrik qövmünə din əxlaqını təbliğ edən hz. İbrahimin gənc yaşda olması Quranda belə xəbər verilmişdir:

***Allah`a and olsun ki, siz çıxıb getdikdən sonra bütlərinizə bir hiylə quracağam! (Onlar gedən kimi İbrahim bütləri) parça-parça edib yalnız onların böyüyünü saxladı ki, bəlkə, qayıdıb ona müraciət etdilər. Dedilər: "Bunu tanrılarımıza kim edibsə, o, şübhəsiz ki, zalımlardandır!" "İbrahim deyilən bir gəncin onları pislədiyini eşitmişik!" – dedilər. (Ənbiya surəsi, 57-60)***

Hz. İbrahim nəslinin davam etməsi və özündən sonra peyğəmbərlik vəzifəsi üçün uca Allah`a ona uşaq verməsi üçün dua etmişdir. Sonsuz mərhəmət sahibi Rəbbimiz də duasına qarşılıq verərək ona hz. İsmayılı vermişdir. Hz. İsmayıl hələ uşaq olmasına baxmayaraq, Allah`a imanı və əmrlərinə itaəti ilə nümunəvi müsəlman olmuşdur.

## Hz. İsa

Hz. İsa Allah`ın izni ilə, möcüzəvi şəkildə atasız dünyaya gəlmiş, eyni zamanda, beşikdə olarkən insanlara Allah`ın onu peyğəmbər göndərdiyini bildirmişdir. Allah`ın İncili vəhy etdiyi hz. İsa və ona tabe olan köməkçiləri həvarilər də Allah`ın gənc yaşlarda hidayət verdiyi müsəlmanlardır. Quranda hz. İsanın beşikdə olarkən danışması belə bildirilir:

***(Məryəm) ona (uşağa) işarə etdi. Onlar dedilər: "Beşikdə olan körpə ilə necə danışaq?" (İsa) dedi: "O, harada oluramsa olum, məni mübarək etdi və mənə diri olduqca namaz qılıb zəkat verməyi tövsiyə buyurdu. O, həmçinin məni anama qarşı olduqca itaətkar etdi, zülmkar, asi eləmədi!" "Doğulduğum gün də, öləcəyim gün də, yenidən dirildiləcəyim gün də mənə salam olsun!" Bu, barəsində şübhəyə düşdükləri Məryəm oğlu İsa haqqında haqq sözdür! (Məryəm surəsi, 29-34)***



### Hz. Yəhya

Hz. Zəkəriyyanın oğlu olan və hz. İsa ilə eyni dövrdə eyni qövmə peyğəmbər göndərilən hz. Yəhya da Allah`ın kiçik yaşlarında hidayət verdiyi mübarək insandır. Hələ uşaq ikən ona hikmət verildiyi Quranda belə bildirilir:

***"Ey Yəhya! Kitabdan möhkəm yapış!" Biz uşaq ikən ona hikmət bəxş etdik. Üstəlik, Öz tərəfimizdən bir şəfqət və paklıq da (bəxş etdik). O, müttəqi idi.*** *(Məryəm surəsi, 12-13)*

### Hz. Yusuf

Hz. Yusuf həyatı, mübarizəsi, məruz qaldığı iftira və zindanda keçirdiyi illərlə bütün möminlərə hikmətli nümunədir. Ona gənc yaşda hidayət verilməsi Quranda belə bildirilir:

***...Beləliklə, Yusufu o yerdə (Misirdə) yerləşdirdik və ona yuxuları yozmağı öyrətdik. Allah Öz əmrində qalibdir. Lakin insanların çoxu bilmir. Yetkin çağına çatdıqda Biz ona hikmət və elm verdik. Biz yaxşı iş görənləri belə mükafatlandırırıq.*** *(Yusuf surəsi, 21-22)*

### Peyğəmbərimizə (s.ə.v) tabe olan gənclər

Peyğəmbərlərin həyatına və mübarizəsinə baxdıqda onlara tabe olan və haqq mübarizədə ona kömək edənlərin çox gənc olduğunu görürük.

### Səhabələr və Peyğəmbərimizin (s.ə.v) gənclərə verdiyi əhəmiyyət

Uca Allah`ın qullarına göndərdiyi son peyğəmbər hz. Muhəmməd (s.ə.v) bütün insanları İslam əxlaqına dəvət etmişdir. İlk müsəlmanlara baxdıqda aralarında cəmiyyətin hər təbəqəsindən insanların olduğunu görürük. Ancaq bu insanların arasında gənclər əksəriyyət təşkil edir. Məkkənin tanınmış ailələrinə mənsub gənclər İslam dininə cəmiyyətin digər fərdlərindən daha çox meyil ediblər. İslam əxlaqını yaymaqda hz. Muhəmmədə (s.ə.v) ən çox bu imanlı gənclər dəstək olublar. Peyğəmbərimizə (s.ə.v) ilk dövrlərdə inanmış müsəlmanlardan bir neçəsi əlli yaşlarında, bəzilərinin yaşı otuz beşdən yuxarı, bəzilərininki isə otuzdan aşağı idi.

Peyğəmbərimiz hz. Muhəmməd (s.ə.v) gənclərə böyük əhəmiyyət vermiş, vəhy katiblərini, əsasən, gənclərdən seçmişdi. Gəncləri müəllim və əksəriyyəti yaşlı səhabələrdən ibarət ordulara sərkərdə təyin etmişdi. Bir çox döyüşdə bayrağı şəxsən özü gənclərə vermişdi. Peyğəmbərimizin (s.ə.v) yanındakı gənclərdən birinin sözləri belə rəvayət edilir:

***Cündüb ibn Abdullah (r.ə.) belə rəvayət edir:***

***"Biz yetkinlik yaşına çatmış bir qrup gənc Rəsulullah əleyhissəlatu vəssəlam ilə birlikdə idik. Quranı öyrənməzdən əvvəl imanı öyrəndik. Sonra da Quranı öyrəndik. Quran sayəsində imanımız daha da artdı". (Kütübi Sitte, İman Bölümü Hadis 5961)***

Bütün möminlər üçün nümunə olan bu gənclərin fəaliyyətlərinə bir çox misal çəkmək olar. Tarixi mənbələrə əsasən:
Peyğəmbərimizin (s.ə.v) yanındakı gənclərdən

- *Hz. Əli çox kiçik yaşda Rəsulullaha (s.ə.v) tabe olmuş, qələbələrinin çoxunu 20-30 yaşlarında qazanmışdı.*
- *25 yaşlarında ikən Həbəşistana hicrət edən Cəfər ibn Əbu Talibin İslamı təbliğ etmək üçün Həbəşistan hökmdarının, xristian din adamlarının və saray əyanlarının hüzurundakı hikmətli nitqi tarixə düşmüşdür.*
- *Musab ibn Umeyr 25 yaşında ikən birinci Əqəbə beyətindən sonra hz. Muhəmməd (s.ə.v) tərəfindən Mədinəyə müəllim göndərilmişdir. Onun fəaliyyətləri sayəsində bir çox mədinəli müsəlman olmuşdur.*
- *Peyğəmbərimiz hz. Muhəmmədin (s.ə.v) qonşu ölkələrin hökmdarlarına və ərəb qəbilələrinə göndərdiyi məktubların çoxunu Zeyd ibn Sabit adlı gənc səhabə yazırdı. Eyni zamanda, qonşu ölkələrdən gələn məktubları tərcümə etmək və cavab yazmaq üçün Peyğəmbərimizin (s.ə.v) əmri ilə ibrani və süryani dillərini öyrənmişdi. Vəhy katiblərindən biri idi. Hz. Muhəmməd (s.ə.v) vəfat etdikdə isə Zeyd ibn Sabit hələ 21 yaşında idi.*
- *Peyğəmbərimizin (s.ə.v) yanındakı gənclərin ilk illərdə Ərəbistan yarımadasından kənarda da İslam əxlaqının tanınmasında mühüm rolu olub.*

## Hz. Musaya tabe olanlar

Firona və bütpərəst qövmünə qarşı nümunəvi mübarizə aparan hz. Musa qövmünü din əxlaqına dəvət etmişdir. Bu dəvəti nəticəsində iman gətirən və hz. Musanın köməkçiləri olanların da gənclər olduğu Quranda belə bildirilir:

***Firon və onun əyanları tərəfindən özlərinə işgəncə veriləcəyindən qorxaraq Musaya öz qövmündən yalnız azsaylı bir nəsil (gənclər) iman gətirdi... (Yunis surəsi, 83)***

***Bir zaman Musa öz gənc xidmətçisinə belə demişdi: "Mən iki dənizin qovuşduğu yerə çatmayınca və uzun müddət gəzib dolanmayınca geri dönməyəcəyəm!" (Kəhf surəsi, 60)***

## Kəhf mağarasındakı gənclər

Əshabi-kəhf Quranda "Kəhf" surəsində bildirilən, iman gətirmiş bir qrup gəncdir. Kəhf əhlinin mağaraya sığınmasının səbəbi dövrün diktator rejimidir. Öz fikirlərini rahatlıqla ifadə edə bilməyən, doğruları bildirə bilməyən, din əxlaqını lazımınca təbliğ etmələrinin qarşısı alınan kəhf əhli həll yolunu bu cəmiyyətdən uzaqlaşmaqda görmüşdür. "Kəhf" surəsi Peyğəmbərimizin (s.ə.v) və İslam alimlərinin bir çox cəhətdən diqqət çəkdiyi surədir. Kəhf və Rəqim əhli qissələrindən bəhs edilən "Kəhf" surəsində axırzamana (hədislərdə xəbər verilən, qiyamətdən əvvəlki dövrə) işarə edən bir çox ifadə var. Bu ayələrdən bəziləri aşağıdakılardır:

***Yoxsa əshabi-kəhfin və Rəqimin ayələrimizdən əcaib bir şey olduğunu güman edirsən? Bir zaman gənclər mağaraya sığınıb: "Ey Rəbbimiz! Bizə Öz tərəfindən mərhəmət bəxş et və işimizdə bizə düz yol göstər!"– demişdilər. (Kəhf surəsi, 9-10)***

Bu ayələrdə axırzamanda gənclərin üzərinə böyük məsuliyyət düşəcəyinə, batil ideologiyalarla elmi mübarizə aparılmasında, din əxlaqının təbliğ edilməsində və insanlara edilən zülmün aradan qaldırılmasında gənclərin mühüm vəzifələr yerinə yetirəcəyinə işarə edilə bilər (doğrusunu Allah bilir).

## Axırzamanda hz. Mehdinin gənc köməkçiləri

Peyğəmbərimiz hz. Muhəmməd (s.ə.v) hədislərində axırzamanda möminlərin lideri olacaq mübarək bir şəxs olan hz. Mehdinin gələcəyini müjdələmişdir. Axırzamanda Allah`ın zülm və qarışıqlıq mühitinə çevrilmiş

dünyanı ədalətlə doldurmaq və İslam əxlaqını yer üzünə hakim etmək üçün göndərdiyi hz. Mehdinin köməkçilərinin gənclər olduğu hədislərdə xəbər verilmişdir:

Hükeym ibn Sad belə deyir:

İmam Əmirəlmömininin Əlinin (ə.s) belə buyurduğunu eşitdim:

***"Mehdi əleyhissəlamın əshabı gəncdir və aralarında yaşlı yoxdur, ancaq gözdəki sürmə və ya yeməkdəki duz qədərdirlər. Yeməkdəki ən az şey də duzdur".***

## *Quran əxlaqının yayılmasında gənclərin üzərinə düşən məsuliyyət*

Sonsuz hikmət sahibi Rəbbimizin qullarına rəhməti olan gənclik kimi nemətə möminlər şükür etməlidirlər. ***Şübhəsiz ki, "Sonra, o gün nemətlər barəsində hökmən sorğu-suala tutulacaqsınız"*** *(Təkasur surəsi, 8)* ayəsinin hökmünə uyğun olaraq hər müsəlman bu neməti Allah yolunda ən xeyirli şəkildə dəyərləndirməlidir.

Gənclər yer üzündə gözəl əxlaqın yayılmasından, müharibələrə, zülmə son qoyulmasından, müsəlmanların yer üzündə əziyyət çəkməsindən məsuldurlar və yaxşılığı əmr edib pislikdən çəkindirmək vəzifəsini üzərilərinə götürməlidirlər. Bütün bunların əsasında duran batil ideologiyalarla elmi mübarizə aparmalı, özlərindən əvvəlki əməlisaleh möminlərin həyatından nümunə götürməlidirlər. Səhabələrin hz. Muhəmmədə (s.ə.v) sədaqətindən, sevgisindən, itaətindən örnək götürməli, Qurana və Peyğəmbərimizin (s.ə.v) sünnəsinə tabe olmalıdırlar. Beləliklə, dünyanın çox yaxın, işıqlı gələcəyə yaxınlaşmasına Allah`ın izni ilə, mömin gənclər bu cəhdləri ilə səbəb olacaqlar.



# Bir ayə, bir açıqlama

## Sən təmkinlə səbir et!
## (Məaric surəsi, 5)

Allah "Məaric" surəsinin bu ayəsində möminlərə təmkinlə səbir etməyi buyurur. Təmkinli səbrin ən əsas xüsusiyyətlərindən biri insanın qəlbi rahat şəkildə səbir etməsidir. Səbir edərkən Allah`ın ona göstərdiyi bütün hadisələrin ən gözəl, ən xeyirli, ən hikmətli şəkildə yaradıldığına tam əmin olmasıdır. Qəlbin rahat olması insanın üz ifadəsindən, rahat halından, danışığından hiss olunur. Üzündə səbrin səbəb olduğu rahatlıq, danışığında isə kamillik və təvəkkül olur.

Təmkinlə səbir edən insan Allah üçün səbir etdiyini dərk etdiyinə görə zövq alaraq səbir edir. İnsan nemət bolluğu ilə qarşılaşdıqda Allah`a həmd edərək ən gözəl tərzdə şükür etməyə çalışır, həmin nemətdən layiqincə istifadə edib Allah`a qəlbən və sözlə şükür edir. Eyni şəkildə, səbir etməli hallarda da bunun Allah`dan bir nemət, lütf olduğunu dərk edərək davranmalıdır. Səbir etdiyi hadisələri Allah`ın bir çox hikmətlə, xeyirlərə zəmin hazırlamaq üçün yaratdığını bilərək, hamısının Allah`ın lütfü olduğunu düşünərək hərəkət etməli, səbir edərkən zövq almalıdır.

Təmkinlə səbir etməyin hikmətlərindən biri də bu əxlaqın insanı Allah`a daha çox yaxınlaşdırması, səmimi müsəlmanın Allah`a sevgisinin daha da artırmasıdır. Allah rizası üçün bir çətinliyə, sıxıntıya, xəstəliyə səbir edən insan səbir etdiyi hər saniyənin, hər anın Allah qatında çox dəyərli olduğunu bilir. Əgər bir insan Allah rizası üçün fəaliyyət göstərərkən eyni anda bir şeyə səbir edirsə, bu əxlaqı etdiyi işi daha da dəyərli edə bilər. Odur ki, müsəlmanlar ölənə qədər, başlarına gələn böyük-kiçik hər hadisədə daima Allah`ın Quranda bildirdiyi kimi, təmkinlə səbir edərək, gözəl əxlaqla davranaraq səbirlərinin əvəzində Allah`ın rizasını qazanmağı ümid edirlər.




# DÜNYANIN ƏN BÖYÜK QUTANI İLK UÇUŞUNA HAZIRLAŞIR

1967-ci ildə ABŞ casus peykləri Xəzər dənizi üzərində hərəkət edən nəhəng cisim müəyyən etdi. Səlahiyyətli şəxslər dərhal bu vəziyyətdən xəbərdar edildilər. Bir qrup tədqiqatçı Vaşinqtonun kənarında Müdafiə və Təhqiqatlar Agentliyi MTA-nın "Yaşıl otaq" adlandırılan hissəsində bu məsələni müzakirə etmək məqsədi ilə toplandı. Cisim təyyarəyə bənzəyirdi, amma sərnişin təyyarəsindən böyük idi. Nəhəng quruluşu var idi, ancaq qanadları çox kiçik idi. Uçması qeyri-mümkün görünən bu cisim otaqdakı səlahiyyətli şəxsləri çox təəccübləndirmişdi. Bir polkovnik: "Bu, bir divdir", - dedi. Digəri isə: "Bəli", - deyə cavab verdi və: "Lox-Ness divi", - dedi.

Bu cisim doğurdan nə idi və necə işləyirdi? Ruslar onunla nə etməyi planlaşdırmışdılar? Cavablar sonrakı illərdə yavaş-yavaş tapıldı: bu, bir ekranoplan idi. Təyyarələrin edə bilmədiyi bir şeyi edirdi: su üzərində aşağı hündürlükdə uçurdu, həm də uzun müddət ərzində. Ekranoplan Rostislav Alekseyev adlı rus mühəndisi tərəfindən icad edilmişdi.

Bu gün "Boinq" şirkətindəki mühəndislər ekranoplana əsaslanaraq suyun səthindən bir az hündürlükdə hərəkət edən nəhəng yük təyyarəsi dizayn ediblər. Bunu etmək üçün su quşlarından nümunə götürüblər. Layihənin adı "Qutan layihəsi"dir. Çünki mühəndislər bu təyyarəni qutandan ilham alaraq dizayn ediblər.

Qutan və digər bəzi su quşları heç bir güc sərf etmədən qanadları açıq şəkildə suyun üzərində uzun müddət süzərək uça bilirlər. Sukəsən quşu bu quşlardan biridir. Sukəsən quşunun bədənində su ilə təmas etdikdə tüklərinin bir-birinə yapışmasının qarşısını alan yağ ifraz olunmur. Bu səbəbdən, digər su quşları kimi ov ovlamaq üçün suya baş




vurması mümkün deyil. Ancaq bu, ona heç vaxt problem yaratmır. Çünki uca Allah onu qüsursuz dizaynla yaratmışdır. Quşun alt dimdiyi üstdəkindən daha uzundur və ucları toxunmaya son dərəcə həssasdır. Sukəsən quşu alt dimdiyini suya salaraq dəqiqələrlə suyun səthində uça bilir. Bu uçuş əsnasında dimdiyinə ov toxunduqda dərhal onu tutur.

Görəsən, təyyarələr nə üçün qutan və ya sukəsən quşu kimi su üzərində uça bilmirlər? Biz görmürük, amma altlarındakı hava təyyarələri daşıyır. Ancaq adi reaktiv təyyarə yerə yaxınlaşdıqca hava, daşıyıcı yastıq təsirini itirir və təyyarənin altından sürətlə çıxır. Təyyarənin alçaqda dayana bilməsi üçün motorları daha böyük güclə işləməlidir. Bu isə texniki baxımdan həm çox çətindir, həm də böyük miqdarda yanacaq tələb edir. Ona görə, təyyarələrin mövcud aerodinamik quruluşları ilə uzun müddət alçaq səviyyədə uçmaları olduqca çətindir.2

"Deməli, sukəsən quşu və qutan su üzərində uçmaq üçün normaldan daha çox və daha sürətlə qanad çırpmalı olurlar?" - deyə düşünə bilərsiniz. Ancaq yanılırsınız, çünki qutan da, sukəsən quşu da qanad çırpmırlar, sadəcə su üzərində süzürlər. Çünki onlar çox xüsusi, böyük qanad quruluşuna və aerodinamik yaradılışa malikdirlər. Bu, elə bir yaradılışdır ki, tük quruluşlarından içi boş yüngül sümüklərinə qədər heç bir yerlərində ən kiçik qüsur belə yoxdur. Bu qüsursuz yaradılış onların su üzərindəki dar hava təbəqəsi üzərində belə dayanaraq süzmələrini təmin edir. Elə buna görə, "Boinq" təyyarəsinin mühəndisləri qutan kimi nəhəng qanadlı təyyarə düzəltməyi düşünürlər.

"Qutan layihəsi"nin rəhbəri Bleyn Roudon: "Quşlar, xüsusilə də qutanlar yerin təsirindən mükəmməl şəkildə istifadə edirlər", -deyir. "Okeana yaxın bir yerdə yaşayıram və qutanların dalğaların üzərində süzməsinə tamaşa edirəm. Bəzən qanadları az qalır ki, suya dəysin".

"Boinq" şirkəti qutanın qüsursuz yaradılışından nümunə götürərək su üzərində



uçan dünyanın ən böyük yük təyyarəsini dizayn edib. “Qutan layihəsi” çərçivəsində dizayn edilən bu təyyarənin qanadının eni 120 m, uzunluğu isə 150 m-dir. Yəni futbol meydançasına belə sığmır. Uçuş mənzili isə 18 000 km-dir. Bu, okeanın üzərindən qitələrarası fasiləsiz uçma deməkdir. Çəkisi digər təyyarələrdən 10 dəfə artıq olmasına baxmayaraq, bir gəmidən 10 dəfə daha sürətlə uçur.

Gələcəyin yük təyyarəsi “Qutan”, demək olar ki, suyun 6 metr üzərində uçacaq, yer səthinə yaxınlığı sürtünməni (hərəkətin havaya qarşı müqavimətini) azaldacaq və qanadın səmərəliliyini artıracaq. Yerin təsiri kimi məlum olan bu aerodinamik proses suyun üzərində uçan və yük daşıyan böyük təyyarənin külli miqdarda yanacağa qənaət etməsinə kömək edəcək.

Dünyanın ən böyük təyyarə firması və bu firmada işləyən onlarla təyyarə mühəndisi, yüzlərlə texniki işçi qutanın necə uçması üzərində aparılan tədqiqatlara əsaslanaraq onu təqlid etməyə çalışırlar. Bu vəziyyət qutanın dizaynındakı üstünlüyün açıq göstəricilərindən biridir. Təkamülçülər quşların sürünənlərdən təkamül yolu ilə törədiyini iddia edirlər. Ancaq quşlarla sürünənlər arasındakı quruluş və metabolik fərqlər təkamül prosesinin baş vermədiyini açıq şəkildə göstərir. Bu iki canlı növü arasında müqayisə aparsaq, hər ikisinin bir-birindən çox fərqli olduğunu görərik.

Quruda yaşayan canlının quşa çevrilməsi üçün sadəcə qanadlarının olması kifayət deyil. Quruda yaşayan canlı quşların uçmaq üçün istifadə etdikləri digər bir çox mexanizmdən məhrumdur. Məsələn, quşların sümükləri quruda yaşayan canlılara nisbətən daha yüngüldür. Ağciyərlərinin daha fərqli quruluş və funksiyası var. Fərqli əzələ və skelet quruluşuna malikdirlər və daha mürəkkəb qan dövranı sistemləri var. Bu mexanizmlər yavaş-yavaş, toplanaraq əmələ gələ bilməz. Quruda yaşayan canlıların quşlara çevrilməsi kimi təkamülçü ssenari bu cür səbəblərə görə tamamilə cəfəngiyatdır.

Əslində, bir çox təkamülçü bununla bağlı iddialarının nə qədər əsassız olduğunu





bilirlər.

"Gözlərin və qanadların ortaq xüsusiyyəti budur ki, ancaq tamamilə təkmilləşdikləri təqdirdə funksiyalarını yerinə yetirə bilərlər. Başqa sözlə, natamam gözlə görmək olmaz, yarımçıq qanadla uçmaq olmaz. Bu orqanların necə əmələ gəldiyi təbiətin hələ yaxşı açıqlanmamış sirlərindən biri kimi qalmışdır". (Engin Korur, "Gözlerin ve Kanatların Sırrı", Bilim ve Teknik, Ekim 1984, sayı 203, səh. 25.)

Quşlar da bütün digər canlılar kimi sonsuz elm sahibi olan Allah tərəfindən uçuş üçün lazımlı bütün xüsusiyyətlərə malik şəkildə yaradılıblar.

# BU ƏSRİN ƏN BÖYÜK İSLAM ALİMLƏRİNDƏN BİRİ: ADNAN OKTAR

## ADNAN OKTAR KİMDİR?

1956-cı ildə Ankarada doğulmuş Adnan Oktar Türkiyənin tanınmış mütəfəkkirlərindən biridir. Milli və mənəvi dəyərlərinə çox bağlı olan və inandığı müqəddəs dəyərləri digər insanlara çatdırmağı insanlıq vəzifəsi qəbul edən Adnan Oktar ideoloji mübarizəsinə 1979-cu ildə Memar Sinan Universitetinin incəsənət fakültəsində təhsil aldığı müddətdə başlamışdır. Universitet dövrü ərzində ətrafında hakim olan materialist fəlsəfi cərəyan və ideologiyaların yanlışlığı haqqında həmin nəzəriyyələrin tərəfdarlarından da artıq məlumatlanaraq hərtərəfli tədqiqatlar aparmışdır. Bu məlumatlar işığında milli və mənəvi dəyərlərə təhlükə törədən darvinizm və təkamül nəzəriyyəsinin dünyaya verdiyi zərərlər və bu nəzəriyyənin müasir elmə



məğlubiyyəti ilə bağlı əsərlər yazmışdır. "New Scientist" jurnalının 22 aprel 2000-ci il tarixli sayının ifadəsi ilə təkamül nəzəriyyəsinin yanlışlığını və yaradılışın doğru olduğunu cəmiyyətə çatdırılmasında cənab Adnan Oktar beynəlxalq qəhrəmana çevrilmişdir. Bundan əlavə, müəllif sionizm və masonluğun dünya tarixi və siyasətinə mənfi təsirləri ilə bağlı kitablar da yazmışdır. Bu əsərlərlə yanaşı, Quran əxlaqını və imani mövzuları təbliğ edən əsərlərlə birlikdə 300-dən çox kitabın müəllifidir.

"Cavid Yalçın" təxəllüsündən də istifadə edən Adnan Oktar əsərlərinin böyük əksəriyyətini Harun Yəhya təxəllüsü ilə nəşr etdirmişdir. Bu təxəllüs inkarçı dünyagörüşünə qarşı mübarizə aparan iki peyğəmbərin xatirələrinə hörmətlə onların adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülüb.

Müəllifin kitabların üz qabığında Rəsulullahın (s.ə.v) möhüründən istifadə etməsinin simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allah`ın son kitabı və son sözü, Peyğəmbərimizin (s.ə.v) də xatəmül-ənbiya (son peyğəmbər) olmasının rəmzidir. Müəllif də nəşr etdirdiyi bütün əsərlərində Quranı və Rəsulullahın (s.ə.v) sünnəsini özünə rəhbər tutaraq inkarçı ideologiyaların bütün təməl iddialarını bir-bir təkzib etməyi və dinə qarşı etirazları tam susduracaq şəkildə son sözü deməyi hədəfləyir. Çox böyük hikmət və kamal sahibi olan Rəsulullahın (s.ə.v) möhürü bu son sözü söyləmək niyyətinin duası kimi istifadə olunur.

Müəllifin bütün əsərlərindəki ortaq hədəf insanlara Quranın təbliğini çatdırmaq və beləliklə, onları Allah`ın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və bəzi mühüm mövzuları xatırlatmaqdır.

Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya və Hersoqovinaya, İspaniya və Braziliyaya qədər dünyanın bir çox ölkəsində rəğbətlə oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnak, uyğur, indonez kimi bir çox dillərə tərcümə edilən əsərlər dünyada geniş oxucu kütləsi tərəfindən oxunur.

Dünyanın hər tərəfində çox bəyənilən bu əsərlər bir çox insanın iman gətirməsinə, bir çoxunun da imanda dərinləşməsinə vəsilə olur. Kitabları oxuyan, təhlil edən hər insan bu dərin fərqin və faydanın, əsərlərdəki hikmətli, ağıllı, anlaşıqlı və səmimi üslubun fərqinə varır. Bu əsərlər sürətli təsir, qəti nəticə, təkzibedilməzlik xüsusiyyətləri daşıyır. Əsərlərin hər birində heç kimin təkzib etmədiyi, səmimi, açıq üslub və dəlillər var. Şübhəsiz ki, bu xüsusiyyətlər Allah`ın nəsib etdiyi hikmət və təsirli izahatdan qaynaqlanır.

Bu həqiqətləri nəzərə aldıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasına təşviq etmək, əlbəttə, mühüm xidmətdir.

Bu dəyərli əsərləri tanıtmaq əvəzinə, insanlara şübhə verən, qarışıqlıq törədən, heç bir faydası olmayan əsərləri müdafiə edənlər də var. Bu insanlar müsəlmanların vəziyyətini, çəkdiyi əziyyətləri düşünməlidirlər. Unudulmamalıdır ki, dünyada davam edən zülm və qarışıqlıqdan xilas olmağın yeganə yolu Quran əxlaqı ilə yaşamaq və Quran əxlaqını təbliğ etməkdir. Müəllifin əsərləri bu xidmətdə əsas vəzifəni üzərinə götürmüşdür və bu əsərlər, Allah`ın izni ilə, XXI əsrdə dünyadakı insanları Quranda tərif edilən sülh və əmin-amanlığa, doğruluğa və ədalətə, xeyir və xoşbəxtliyə qovuşdurmağa vəsilə olacaq.

## Adnan Oktar nə üçün təxəllüsdən istifadə edir?

Cənab Adnan Oktarın əsərləri qələmə almaqdakı məqsədi Allah`ın rizasını qazanmaq və oxucularını ancaq Qurana və Peyğəmbərimizin (s.ə.v) nümunəvi əxlaqına tabe olmağa dəvət etməkdir. Cənab Adnan Oktarın şəxsini ön plana çıxarmaq kimi məqsədi yoxdur. Əsərlərində də öz adı əvəzinə təxəllüsdən istifadə etməsi cənab Adnan Oktarın

bu xüsusiyyətinin bir dəlilidir.

Adnan Oktar ona tez-tez ünvanlanan sualları cavablayır:

## Nə üçün qeyri-müsəlman xanımları televiziya verilişlərinizə çıxarırsınız? Bu, dinə uyğundurmu?

Müsəlmanın vəzifəsi bütün insanları İslam əxlaqına dəvət etmək, İslam dininin gözəlliklərini, Allah`ın sonsuz gücünü və qüdrətini hər kəsə təbliğ etməkdir. Müsəlman hər inancdan olan insana, məsələn, xristianlara, yəhudilərə, buddistlərə, hindulara və ateistlərə belə təbliğ etməlidir. Allah`ın kainatdakı yaradılış dəlillərindən, Quran əxlaqı və Peyğəmbərimiz hz. Muhəmmədin (s.ə.v) sünnəsindən bəhs etməlidir. Peyğəmbərimiz (s.ə.v) də öz dövründə hər dinə mənsub, hər cür düşüncə tərzinə malik insanı İslam dininə dəvət etmiş, onlara sevgi və anlayışla yanaşmış, üstün əxlaqla davranaraq səbirlə onlara İslam əxlaqını təbliğ etmişdir. Biz də verilişlərimizdə hər dindən və inancdan olan insanları qonaq edir, onlara İslam əxlaqının gözəlliklərini və əsl müsəlmanın necə olmasını həm söz ilə, həm də əyani şəkildə göstərməyə çalışırıq. Təbliğdə məqsəd məhz İslam əxlaqını bilməyən, tanımayan bir insanı doğru yola dəvət etməkdir. Əgər "İslam əxlaqı ilə yaşamayan insanla danışmaram, münasibət qurmaram" şəklində yanlış anlayış mənimsənilsə, onda Quranda müsəlmanlara fərz edilmiş təbliğ ibadəti layiqincə yerinə yetirilməz.

Peyğəmbərimizin dövründə də müsəlmanlar və səhabələr hər cür həyat tərzinə malik insana dinimizi təbliğ edirdilər. Peyğəmbərimiz (s.ə.v) Ukaz bazarında açıq geyimli xanımlara təbliğ edirdi. Hz. Süleymanın Səba məlikəsi Bəlqisə öz sarayında necə təbliğ etməsindən Quranda ətraflı bəhs olunur. Ona görə, bir müsəlmanın açıq geyimli xanımlarla danışmaması, görüşməməsi və ya onlara təbliğ etməməsi Quran əxlaqına uyğun olmayan yanlış inancdır.

## İnsanların qarşısında musiqi çalınmasını və rəqs edilməsini dinə əsasən necə açıqlayarsınız?

Müsəlman Allah`ın halal etdiyi bütün nemətlərdən ən gözəl şəkildə faydalanmalıdır. Çünki Allah dünya nemətlərini müsəlmanlara halal edib. Musiqi və rəqs də İslama əsasən halal olan cənnət nemətlərindəndir. Musiqini, mahnıları, musiqi alətlərinin hamısını, gözəl geyimləri, zinətləri, rəqsi və bütün gözəl şeyləri yaradan Allah`dır. Bunların hamısını insanlara sevdirmiş, ruhu bu gözəlliklərdən zövq alacaq şəkildə yaratmışdır. Müsəlmanlar dünyada bu nemətlərdən halallar çərçivəsində faydalanar, axirətdə isə cənnətdə əbədiyyən bu nemətlərdən zövq alaraq yaşayarlar.

Tövratda hz. Davudun lira, dəf, qumrov kimi musiqi alətlərinin müşayiəti ilə nəğmə oxuyaraq Allah`ın hüzurunda rəqs etdiyindən bəhs edilir. Hətta hz. Davudun bu rəqsinə paxıllıq edən insanların olduğu da bildirilir. Rəqsi, musiqini, estetikanı, incəsənəti, elmi müsəlmanların əlindən alan və haram kimi göstərən xurafatçı düşüncə tərzidir. Bu nemətlərin haram göstərilməsi İslamın əleyhinə oynanmış oyundur.

Müsəlman dünya həyatındakı bütün gözəlliklərə ən çox layiq olan insandır. Mahnıların sözlərində dinə və müqəddəs dəyərlərə zidd, mənfi sözlərin olmamasına diqqət etdikdən sonra musiqi Allah sevgisini coşduran, insanı fərəhləndirən, qəlbi rahatladan nemətdir. Musiqi də, rəqs də insanın gündəlik həyatındakı nemətlərdəndir. Bundan əlavə, bizim verilişlərimizdə musiqinin, rəqsin, Quran söhbətinin, siyasətin və ya digər mövzuların eyni anda yer alması dinlə həyatın iç-içə olduğunu göstərmək, dinin həyatın hər anına hakim olduğunu insanlara göstərmək məqsədini daşıyır.



## Qurana əsasən, bir qadının bu qədər kosmetikadan istifadə etməsi uyğundurmu?

Müsəlmanın ən böyük xüsusiyyətlərindən biri çox keyfiyyətli, tər-təmiz və baxımlı olmasıdır. Müsəlman kişilər də, qadınlar da dünyanın ən gözəl geyimli, ən kübar görünüşlü, ən baxımlı, ən bilikli, ən müasir insanları olmalıdırlar. Kosmetika da baxımlı və gözəl görünməyin halal yollarından biridir. Peyğəmbərimizin (s.ə.v) dövründə də xanımlar kosmetikadan istifadə edirdilər. Ancaq həmin dövrün imkanları çərçivəsində edirdilər. O dövrdə müsəlman xanımlar ənlik, kirşan, dodaq boyasından istifadə edir, əllərini və dırnaqlarını xına ilə rəngləyir, saçlarını xüsusi boyalarla boyayırdılar. Peyğəmbərimizin (s.ə.v) dövründə xanımların dırnaq lakı əvəzinə əllərini və dırnaqlarını xına ilə boyadıqlarından və Peyğəmbərimizin də (s.ə.v) xanımları buna təşviq etdiyindən bir çox rəvayətdə bəhs edilir. Kosmetikadan az və ya çox istifadə edilməsi də tamamilə şəxsi zövqə bağlıdır. Bəzi xanımlar kosmetikadan çox istifadə etməyi xoşlayır, bəzilər isə xoşlamırlar. Bunun ölçüsü tamamilə şəxsi istəyə bağlıdır. Peyğəmbərimizin (s.ə.v) dövründə də müəyyən ölçü qoyulmamışdır. Peyğəmbərimizin (s.ə.v) sürməni nə qədər çəkdiyini, ölçüsünün nə qədər olduğunu da heç kim bilmir.

## Qurana əsasən, qadınlar lider ola bilərlərmi?

Qurana əsasən, qadınlar həm lider, həm idarəçi, həm də hakim ola bilərlər. Allah qullarını bərabər yaradıb. İslamda qadının da, kişinin də yeri eynidir. Üstünlük qadın və ya kişi olmaqda deyil, üstünlük təqvaya görədir. Hətta qadınlar bəzi məsələlərdə daha həssas, mərhəmətli, sevgi və şəfqət dolu varlıqlar olduqlarına görə, mükəmməl idarəçilik qabiliyyəti ilə və ədaləti bərqərar etmək sahəsində əhil yaradılıblar.

Ancaq xurafatçı düşüncə tərzində qadınlar alçaldılır. Xurafatçı düşüncə tərzində qadının ağlına güvənməmək, hər sözünə müxalif olmaq kimi yanlış anlayış var. Quran bu batil anlayışı tamamilə aradan qaldırır. Quranda qadınlar hörmət edilən, sözünə etibar olunan, bitki kimi etina ilə davranılan dəyərli qullar kimi tərif edilir. Allah Quranda qadınları hər cür çətin işdən uzaqlaşdırır, hər məsələdə qadınlara asanlıq yaradır, qadınlar hər sahədə qorunurlar.

Quranın kişilərə xitab etdiyini bildirərək bunu kişilərin üstünlüyünə dəlil göstərənlər Quranı doğru şərh etməyən insanlardır. Quranın kişilərə daha çox məsuliyyət yükləməsi qadınlara verilən dəyərdəndir. Bu, qadınlar üçün nemətdir. Allah qadınların rahat olması, gözəl həyat yaşaması üçün bir çox xüsusi hökm nazil edib. Bu, Allah qatında qadınlara verilən dəyəri göstərir, kişilərin üstünlüyünü deyil.

Hz. Süleymanın sarayına dəvət edərək təbliğ etdiyi Səba məlikəsinin Quranda mühüm yeri var. Səba məlikəsi öz ölkəsində hökmdardır, həm sərkərdə, həm hakim, həm də lider hökmündədir. Səba məlikəsindən bəhs edən ayələr Quranda qadının lider ola biləcəyinə dair ən gözəl nümunələrdən biridir. Bu ayələr dövlət orqanlarındakı bütün səlahiyyətli şəxslərin və əsgərin bir qadına necə itaət etdiyini və əmrinə tabe olduğunu göstərir.

## Nə üçün verilişlərinizdə iştirak edən qadınların saçları sarıdır?

Verilişlərimizə çıxan sarışın xanımlarla yanaşı, bir çox qara, qızıl saçlı və ya qumral xanımlar da var. Saç rəngləri xanımlarımızın öz seçimidir. Sarı saç dünyada da bir çox xanımın üstünlük verdiyi, xanımlara yaraşan gözəl rəngdir. Peyğəmbərimizin (s.ə.v) dövründə də xanımlar saçlarını xına və kətəmlə boyayırdılar. Bundan əlavə, Peyğəmbərimizin (s.ə.v) bütün saç rəngləri arasında xüsusilə sarı saçı bəyəndiyinə dair bir çox hədis var. Odur ki, bir çox müsəlman xanım Peyğəmbərimizin (s.ə.v) bəyəndiyi bu rəngi sevir və üstünlük verir.

## Mehdinin xüsusiyyətləri sizə çox uyğundur, eyhamla özünüzə işarə etdiyiniz bir söhbətiniz var, bu, dinə zidd deyilmi?

İnsanlarda mənim fiziki xüsusiyyətlərimdən qaynaqlanan, Mehdi olduğuma dair şübhələr və ya hüsnü-zənn ola bilər. Hədislərdə izah edilən hz. Mehdinin (ə.s) fiziki xüsusiyyətlərinə baxdıqda, həqiqətən, eynilə bənzərlik olduğunu görürük. İstər



üzüm, istər bədənim hədislərdəki hərtərəfli təriflərə tam uyğundur, bu, doğrudur. Mən dürüst insanam, bənzədiyimi deyirəm, ancaq bu, Mehdilik iddiası deyil. Qurana əsasən, bir müsəlman: "Mən Mehdiyəm" - deyə bilməz. Belə bir iddia etmək haramdır. Çünki bu insan cənnətə də gedə bilər, cəhənnəmə də. Əgər bir şəxs Mehdi olduğunu desə, cənnətlik olduğunu iddia etmiş olar. Bir insan Mehdilik iddia etmək üçün vəhy almalıdır. Qurana əsasən, yeni bir kitab və ya kitablı peyğəmbər gəlməyəcəyinə görə, mənim belə bir şeyi iddia etməyim qeyri-mümkündür. Belə bir şey olsa, insan dindən çıxar, müsəlman olmaz. Ancaq təbii ki, hər müsəlman Mehdi olmaq istər. Mehdi olmaq böyük nemətdir. Müsəlman Allah dostu olmaq, cənnətə getmək istər. Ancaq mehdilik iddia etmək olmaz.

Mən Mehdi deyiləm və mehdilik iddiam yoxdur. Heç vaxt belə iddiam olmaz. Ömrüm boyu belə bir iddia etməyəcəyimə dair Allah`ın adına and içmişəm. Ancaq açıq-aydın deyirəm: hz. Mehdi (ə.s) gəlib. Bu barədə Peyğəmbərimizin (s.ə.v) hədisləri, Quranın işarələri Mehdinin gəldiyini göstərir.

## Əsasən, xarici modelyerlərin marka geyimlərini geyinirsiniz. Qeyri-müsəlmanların istehsal etdiyi şeylərdən istifadə etmək dinimizə görə uyğundurmu?

Quranda xurafatçı İslam anlayışı yoxdur. Müsəlmanlar musiqiyə, əyləncəyə, ən gözəl evlərə, ən gözəl yeməklərə, ən gözəl mühitlərə layiqdirlər. Allah Quranda: **"...Bunlar dünyada iman gətirənlər üçündür, qiyamət günündə (axirətdə) isə yalnız möminlərə məxsusdur..." (Əraf surəsi, 32)** - buyurur. Halbuki, xurafatçılara görə, bir müsəlman daima miskin olmalı, pis geyinməlidir. Xurafatçı baxımsız olur, estetikaya, incəsənətə, hər cür gözəlliyə qarşı olur. Xurafatçı məntiqinə əsasən, bir müsəlman keyfiyyətli, müasir, təmiz ola bilməz. Halbuki, peyğəmbərlər, səhabələr dövrün ən keyfiyyətli, ən müasir, ən təmiz insanları olublar. Quran bizi buna təşviq və tövsiyə edir.

"Müsəlman xarici marka məhsullardan istifadə etməməlidir" düşüncəsinin heç bir əsası yoxdur. Bu, tamamilə xurafatçılıqdır, halalı haram etməkdir. Bunu praktikada tətbiq etmək də qeyri-mümkündür. Çünki gündəlik həyatda istifadə edilən bir çox məhsulun emal mərhələsində əxlaqsız həyat tərzi keçirən, qanunsuz gəlir əldə edən, faiz yeyən və bir çox haram işlər görən insanlar işləyə bilər. Müsəlmanın yaşadığı, oxuduğu, işlədiyi yerdə əxlaqsız həyat tərzi keçirən, Quran əxlaqı ilə yaşamayan insanlar yaşaya bilər. Bu məntiqə görə, heç bir məhsuldan istifadə etmək lazım deyil, bu isə ağıldankənardır.

## Kanalınızın adı nə üçün A9-dur?

A9 TV kanalı bizim qardaşlarımızın, bizi sevən insanların qurduğu kanaldır. Hər kəs kanalın adına bir məna verməyə çalışır. Bu, təvafüqən seçilmiş addır. Qədərdə A9 olmalı imiş. Ancaq əlbəttə, A9 adının çoxlu hikmətləri var. Məsələn, hz. Mehdinin (ə.s) doqquz xüsusiyyəti var. Biz də Mehdi tələbələri olduğumuza görə, A9 ona olan həsrətin simvolik mənası ola bilər. Hz. Əli (r.ə) də Mehdidən bəhs edərkən əli ilə 9 işarəsi verir. Ona da işarə edə bilər. Firon dövründəki rəsmlərdə də A9 loqosuna bənzərliklər var. Mason loqolarında da belə bənzərlik var. 3000-4000 il əvvəl Allah A9-un dəccalı, dinsiz fəlsəfi cərəyanları məhv edəcəyini onlara ilham edib. Digər tərəfdən, Allah`ın adı "A" hərfi ilə başlayır. Bu cəhətlərə görə A9 adı mənalıdır. Daha çox məna çıxarmaq olar.

## Müasir cəmiyyətdə bu qədər danışılmalı problem var ikən daima Mehdi mövzusunu gündəmdə saxlamağınız bu qədər vacibdirmi? Bunu necə açıqlaya bilərsiniz?

Söhbətlərimdə İslam əxlaqının yer üzünə hakim olmasına və mehdiyyət mövzularına xüsusi yer verməyim Quran əxlaqının tələbidir.

Hz. Mehdidən (ə.s) danışmaq, hz. Mehdinin (ə.s) gəlişini müsəlmanlara müjdələmək, eyni zamanda, Peyğəmbərimizin (s.ə.v) sünnəsidir. Allah Quranda İslam əxlaqının yer üzünə hakim olması üçün cəhd etməyin bütün müsəlmanların məsuliyyəti olduğunu bildirir. Quranda bu mövzuda bir çox ayə var. Allah`ın adətullahına uyğun olaraq tarixin hər dövründə haqq dinin təbliğ edilməsində müsəlmanlara rəhbərlik edən, onları hidayətə yönəldən mənəvi lider olub. Axırzamanda müsəlmanları Quran əxlaqına və hidayətə yönəldəcək, onları birləşdirəcək şəxs hz. Mehdidir (ə.s). Peyğəmbirimizin (s.ə.v) səhih hədisləri ilə bu mövzu 14 əsr əvvəl insanlara müjdələnib. Peyğəmbərimmiz (s.ə.v) bu mövzunun əhəmiyyətini hədislərində açıq-aydın vurğulayır. Müsəlmanların da bu mövzunu gündəmə gətirib müjdələməsini bildirir.

Əgər mehdiyyət əhəmiyyətsiz mövzu olsaydı, Peyğəmbərimizin (s.ə.v) söhbətlərində bunu görməzdik. Ancaq əksinə, həm Peyğəmbərimiz (s.ə.v) bu mövzuya əhəmiyyət vermiş, həm də müsəlmanları hər dövrdə bu mövzunu gündəmdə saxlamağa təşviq etmişdir. Mən də Peyğəmbərimizin (s.ə.v) tövsiyəsini yerinə yetirirəm. Hz. Mehdinin (ə.s) gəlişini müsəlmanlara müjdələyirəm, hz. Mehdini (ə.s) insanlara tanıdıram.

Bundan əlavə, Peyğəmbərimizdən (s.ə.v) başqa, 1400 ildən çoxdur ki, bütün böyük İslam alimləri də müsəlmanlara hz. Mehdinin (ə.s) gəlişini müjdələyiblər. Hər biri əsərlərində, söhbətlərində bu mövzuya çox geniş yer ayırıblar. Əhli-sünnənin böyük alimləri olan hədis alimlərimiz, məzhəb imamlarımız da mehdiyyət mövzusuna böyük əhəmiyyət veriblər.

## Verilişlərinizdəki xanımların geyimləri dinə uyğundurmu?

İstər qadın, istər kişi olsun – hər müsəlman həmişə xarici görünüşünə çox diqqət etməli, gözəl geyinməli, tər-təmiz olmalıdır.



Peyğəmbərimiz (s.ə.v) və yanındakılar da istər təbliğ edərkən, istərsə də gündəlik həyatda çox gözəl geyiniblər, ən keyfiyyətli paltarlara üstünlük veriblər.

Bundan başqa, İslam dinində məcburiyyət yoxdur. Biz hər kəsin anlayışına və fikrinə hörmətlə yanaşırıq. Xanım dostlarımız da öz istədikləri kimi, inanclarına uyğun şəkildə geyinirlər. İstəyən hicab taxır, istəməyən taxmır və istədiyi kimi geyinir, istəyən çarşab geyinir, istəyən kosmetikadan istifadə edir – fərq etməz, hamısı bizim üçün nur kimi dəyərli müsəlmandır, heç bir ayrı-seçkilik etmirik.

## Yəhudi və xristianlarla nə üçün görüşürsünüz?

Müsəlmanlarla xristianlar və yəhudilər arasında süni gərginlik yaratmağa çalışırlar, buna mane olmaq, bölgədə sülhün bərqərar olmasını təmin etmək üçün görüşlərin keçirilməsi şərtdir.

Müsəlmanlar və yəhudilər hz. İbrahimin (s.ə.v) övladlarıdır, bir tərəf İsmail oğulları, digər tərəf Yəqub oğullarıdır. Ona görə, iki qrup arasında qarşıdurma olması və münasibətlərin pozulması çox mənasız və yersizdir. Peyğəmbərimizin (s.ə.v) dövründəki kimi, yəhudi və xristian qardaşlarımızın qorunması Qurana və hədislərə uyğundur. Bəzi şəxslər Qurandakı "xristianları və yəhudiləri dost tutmayın" ayəsini yanlış anlayırlar. Bu ayədəki ərəbcə "vəli" sözü rəhbər, idarəçi mənasındadır. Müsəlman cəmiyyətdə müsəlman, xristian cəmiyyətində xristian, yəhudi cəmiyyətində də yəhudi rəhbər olması xalqın rahatlığı baxımından da təbiidir. Yəhudi və xristianlar bizim dünyada qardaşlarımızdır, onları sevir, hörmət edir və müdafiə edirik.



# Allah`ın müxtəliflik sənətinə nümunə: qanadları olmadan uçan canlılar

Bəzi canlılar quşlar, yarasalar və həşəratlar kimi havada uçmasalar da, Allah`ın yaratdığı mükəmməl xüsusiyyətlər sayəsində bir ağacın təpəsindən özlərini paraşüt kimi buraxır və ya dənizdən çıxaraq suyun üzərində süzürlər.

Bu canlılar suyun üzərində, meşənin dərinliklərində ağacların arasında və ya labirint formasındakı mühitdə təhlükəsiz şəkildə ağırlıqlarını ustalıqla paylayaraq, pərdə, oynaq və ya dəridən ibarət bədən üzvlərinin köməyi ilə planer kimi havada süzürlər. Bu heyvanların uçma və ya havada süzmə qabiliyyəti onların təhlükəli mühitdən uzaqlaşmasını, ov ovlamasını və ya yırtıcılara yem olmaqdan qaçmasını təmin edən təsirli metoddur və Rəbbimizin canlılar üzərindəki rəhmətinin ən gözəl təcəllilərindən biridir.



### Uçan sincab

Avstraliyada yaşayan, boyu 45-90 sm olan uçan sincabların bütün növləri ağaclarda yaşayır. Əslində, uçmurlar. Bir ağacdan digərinə uzun məsafədən tullanırlar. Ağaclar arasında planer kimi uçaraq hərəkət edən bu canlıların qanadları yoxdur, ayaqları arasında uçmaq üçün pərdə var. Uçan sincabların bir növü olan şəkər uçan sincablarında ön ayaqlarla arxa ayaqlar arasında uçmaq üçün dar pərdə var. Pərdənin üstü saçağa bənzər tüklərlə örtülüdür. Bəzi növlərdə isə bu pərdə kürklü dəridən ibarətdir. Bu pərdə ön ayağın topuğuna qədər uzanır. Uçan sincab ağacın gövdəsindən tullanır və gərilərək planerə bənzəyən dərinin təsiri ilə havada 30 m məsafə qət edir. Uçan sincab bu xüsusiyyəti ilə quşlar və həşəratlar istisna olmaqla uça bilən heyvanlar arasında ən uzaq məsafə qət edən canlıdır.

Sincab çətin hərəkətləri arxa ayaqları, məsafəni çox yaxşı müəyyən edən iti gözləri, güclü pəncələri və müvazinətini qoruyan quyruğu ilə bacarır. Əlbəttə, bunu edən sincab deyil. Şübhəsiz ki, bu sevimli heyvanları bütün xüsusiyyətləri ilə birlikdə yaradan və onlara bu xüsusiyyətlərdən istifadə etməyi öyrədən uca Allah`dır.





**Uçan skat**

Bir tondan çox çəkisi olmasına baxmayaraq, dəniz səthindən 2 m havaya qalxıb süzən Mobula skatları Allah`ın müxtəliflik sənətinin ən gözəl nümunələrindən biridir.

Planktonlarla zəngin olan Meksikanın şərq sahilində Kaliforniya körfəzində bu canlılar yüngülcə suyun səthinə tullanırlar. Bu hərəkətin səbəbi hələ məlum olmasa da, elm adamları skatların bu hərəkətləri bədənlərinə yapışan parazit balıqları təmizləmək, qida axtarmaq və ya titrəyişə həssas ovlarını qorxudaraq digər skatların ağzına doğru istiqamətləndirmək üçün etdiklərini düşünürlər. Skatları tədqiq edən bəzi tədqiqatçılar bu canlıların suyun altında ovlarını tutmaq üçün etdikləri hərəkətləri suyun üstündə də edərək ovlarını dar sahəyə sıxışdırdıqlarını və başlarının hər iki tərəfindəki çıxıntılarla ağızlarına doğru istiqamətləndirdiklərini müəyyən ediblər. Skatlar bu qüsursuz xüsusiyyətləri ilə göylərin və yerin Rəbbi olan Allah`ın sənətinin və elminin nümunələrindən biridir:

*... Göylərin, yerin və onların arasında olanların səltənəti Allah`a məxsusdur. (Allah) istədiyini yaradır. Allah hər şeyə qadirdir. (Maidə surəsi, 17)*

**Uçan balıq**

50 cinsdən ibarət ailəyə aid olan bu balıqlar dənizdən çıxıb saatda 67,6 km sürətlə uçurlar. Üzgəclərindən qanad kimi istifadə edib qısa məsafələri uçaraq qət edən bu balıqlar 1.5-2.5 m qədər hündürlüyə qalxa bilirlər. Maraqlıdır ki, bu balıqlar dənizdən kənara sıçradıqda nəfəs almamağın lazım gəldiyini bilirlər. Allah`ın ilhamı ilə bu qabiliyyətləri sayəsində milyonlarla ildir yaşayan bu canlılar yaradılış möcüzəsidir və çox mükəmməl varlıqlardır.

Yaşı 100 milyon il olan uçan balıq fosilləri bu canlıların milyon illər boyu heç dəyişmədiklərini sübut edir. Ayədə Rəbbimizin yaratma sənəti belə bildirilir:

*Göylərdə və yerdə olanların hamısı Allah`ın şəninə tәriflər deyir. Hökm Onundur, həmd Ona məxsusdur. O, hər şeyə qadirdir. (Təğabun surəsi, 1)*

### Uçan qarışqa

Allah`ın üstün ağlı və müxtəliflik sənətinə nümunə olan canlılarından biri olan uçan qarışqalar hamının tanıdığı qanadlı qarışqalardan fərqlidir. Çünki bu həşəratların uçmaq üçün yaradılmış qanadları yoxdur. Lakin Rəbbimiz onlara havada süzmək bacarığını ilham edib. Ona görə, yaşadıqları yerdəki ağacların birindən yıxıldıqda "J" formasını alaraq havada süzür və başqa ağacdan yapışır, canlılara yem olmaqdan xilas olurlar. Allah canlıları yoxdan yaradıb və təbiətdəki hər canlı növü Allah`ın yaratma sənətindəki müxtəlifliyin göstəricisidir. Quran ayələrində belə bildirilir:

*Göylərdə və yerdə kim varsa, Ona məxsusdur. Hamısı Ona təzim edir. Məxluqatı ilk dəfə (yoxdan) yaradan, sonra onu bir daha təkrarlayan Odur. Bu da Onun üçün çox asandır. Göylərdə və yerdə olan ən uca sifətlər Ona məxsusdur. O, qüdrətlidir, müdrikdir. (Rum surəsi, 26-27)*

### Uçan mürəkkəb balığı

Əksər hallarda uçan balıqlarla qarışdırılsa da, mürəkkəb balıqlarının bu növü uçan balıqlardan fərqli olaraq tərsinə uçurlar. Yırtıcılara yem olmaqdan xilas olmaq üçün dəniz səthindən 20 m hündürlüyə qədər tullana bilən mürəkkəb balıqları havada olarkən üzgəclərindən qanad kimi istifadə edib müvazinətlərini qoruyur və sürətlərini tənzimləyirlər. Allah bir ayədə canlıların xüsusiyyətlərini də yaratdığını belə bildirir:

*Göyləri, yeri və onlarda yaydığı canlıları yaratması Onun dəlillərindəndir... (Şura surəsi, 29)*

Yer üzündə milyonlarla canlı növü yaşayır. Bu canlıların hər biri bir-birindən fərqli xüsusiyyətlərə malikdir. Qanadları olmadığı halda paraşüt və ya planer kimi havada süzən canlılar da Allah`ın yaratma sənətinin nümunələrindəndir və bu xüsusiyyətləri ilə Allah`ın sonsuz elmini nümayiş etdirirlər.

### Uçan qurbağa

Allah yaratdığı canlılara çox maraqlı xüsusiyyətlər bəxş edib. Qeyri-adi hərəkətlər edən canlılardan biri də Borneo və Sumatra adalarının sıx meşələrində yaşayan qurbağa növüdür. İncə ayaqları və barmaqlarının arasında pərdə olan bu kiçik ağac qurbağasının ən əsas xüsusiyyəti pərdəli ayaqları ilə havada süzərək uçmasıdır. Ağacların üstündən uçarkən enişi yavaşlatmaq istədikdə ayaqlarından 4 ədəd paraşüt kimi istifadə edir. Ayaq barmaqları arasındakı pərdələri açaraq bədən səthinin sahəsini iki dəfə artırır. Uçan qurbağalar havada 12 m süzə bilirlər. Hətta ayaqlarını hərəkət









etdirərək və pərdəli ayaqlarının mövqeyini dəyişdirərək istiqamətlərini də tənzimləyirlər.

**Uçan ilan**

Cənub-şərqi Asiyada yaşayan bir ilan növü qanadları və havada süzməyə kömək edən bədən üzvləri olmadığı halda, 20 m-dən çox uçur. Yetkin fərdlərinin uzunluğu 1 metrə çatan bu ilanların havada süzmək bacarığı mükəmməl aerodinamik sistemə əsaslanır.

İlan, əvvəlcə, bir budaqdan aşağıya sallanır. Bu zaman bədəni J hərfi formasına düşür. Birdən yuxarıya doğru hərəkətə keçib özünü budaqdan buraxır. Bədənini dümdüz formaya salıb başını yastıladır. Bu, gürzənin yastı ənsəsinə bənzəyir. Bu şəkildə ilanın bədən səthinin sahəsi təqribən iki dəfə artır. İlan sürətini artırdıqca başını və quyruğunun ucunu ortaya doğru qaldırır və bir ucundan digər ucuna "S" formasında dalğalanır. İlanın bu hərəkəti stolun üstündəki qamçının bir ucundan dalğalandırılmasına bənzəyir.

İlanın tullanması başqa heç bir canlıda rast gəlinməyən sistemə əsaslanır. Havada süzməyə imkan verən bu sistem, eyni zamanda, yerə yavaşca enməyi də mümkün edir.

İlanlar manevrlə yanaşı, havaya qalxarkən üstün qabiliyyət nümayiş etdirir. Havaya qalxarkən 1 saniyənin 1/10-dən az müddətdə özünü sürətlə irəliyə doğru itələyir. Bu qısa müddətdə bədənin lazımi formaya düşməsi üçün sinir hüceyrələri və əzələlər arasında mükəmməl mütəşəkkillik baş verir.

Sinir-əzələ tənzimləməsi sinir sistemi ilə əzələlər arasında xəbərləşməyə əsasən, təsir-əks təsir mexanizmi əsasında olur. Bu sayədə minlərlə əzələ lifi eyni zamanda hərəkət edir və ilan havada süzür. Tədqiqatçılar bu hərəkətdə iki müxtəlif əzələ növünün iştirak etdiyini təxmin edirlər.

İlan havada olduqda bir əzələ qrupu bədəni yastılaşdırır, digər əzələ qrupu havadakı "S" şəkilli dalğalanma hərəkətini tənzimləyir. Bu iki əzələ qrupu sinir hüceyrələrindən gələn impulslara görə uyğun şəkildə gərilir. Sinir hüceyrələrindən bu əzələlərə hər an çoxlu sayda əmr göndərilir. Ancaq ilanın sinir hüceyrələrindən əzələlərinə birtərəfli impulslar kifayət deyil. Əzələlərin verilən əmrə əsasən aldığı vəziyyət sinir hüceyrələrinə ötürülərək mükəmməl nəzarət mexanizmi təmin olunur.

İlanın bu qabiliyyəti və sinir-əzələ sisteminin quruluşu mükəmməl

yaradılış nümunələrindən biridir. Allah canlılardakı bütün sistemləri qeyri-adi incəliklərlə yoxdan yaratmışdır. Allah`ın canlılar üzərində təcəlli edən yaratma elmi Quranda belə bildirilir:

***Allah hər bir canlını sudan yaratmışdır. Onlardan bəzisi qarnı üstə sürünür, bəzisi iki ayaq üstündə gəzir, bəzisi də dörd ayaq üstündə gəzir. Allah istədiyini yaradır. Şübhəsiz ki, Allah hər şeyə qadirdir. (Nur surəsi, 45)***

Quşlar istisna olmaqla, digər uçan canlıların xüsusiyyətlərini tədqiq edən alimlər açıqlamalarında heyranlıqlarını ifadə edirlər. Ancaq bu tərifəlayiq xüsusiyyətlərin heç biri canlıların özündən qaynaqlanmır. Çünki bu canlıların üstün dizayndan, bənzərsiz qabiliyyətlərindən heç özlərinin xəbəri yoxdur. Bu canlılar həmin xüsusiyyətləri özləri qazanmayıblar. Odur ki, bu üstün canlıların əsl sahibi və tərifə layiq olan uca Allah`ı tərifləməliyik. Ancaq unutmaq olmaz ki, Rəbbimizə həmd etməyə ancaq və ancaq bizim ehtiyacımız var. Bir Quran ayəsində Allah belə bildirir:

***Musa dedi: "Əgər siz və yer üzündə olanların hamısı kafir olsanız, (Allah`a heç bir zərər yetirə bilməzsiniz). Çünki Allah, həqiqətən də, zəngindir, tərifəlayiqdir". (İbrahim surəsi, 8)***

**Uçan kərtənkələ**

Allah tropik meşələrdə yaşayan hər heyvana özünəməxsus hərəkət qabiliyyəti ilham edib. Bunlardan biri də ayaqlarının arasında dəri olan uçan kərtənkələdir. Bu dəri sayəsində uçan kərtənkələlər iki ağac arasında 60 metrə qədər havada süzərək uçurlar. Allah yaratma sənətinin qüsursuzluğunu bir ayədə belə bildirir:

***Heç yaradan da yarada bilməyən kimi ola bilərmi? Düşünüb ibrət götürməyəcəksinizmi? Əgər Allah`ın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir! (Nəhl surəsi, 17-18)***

**Uçan lemur**

Uçan lemurlar havada süzən məməlilər arasında ən mükəmməl qanadabənzər dəriyə malikdirlər. Allah bu canlıları çənələrinin altından dırnaqlarına, ön ayaqlarından arxa ayaqlarına, arxa ayaqlarından quyruqlarının ucuna qədər uzanan dəri ilə örtüb. Bədəni başdan-ayağa örtən bu dəri lemura uçarkən itələmə qüvvəsi verir. Möhkəm dırnaqları isə ağacların dik gövdələrinə endikdə asanlıqla yapışmasına imkan verir. Lemurların bu xüsusiyyətləri uca Allah`ın sonsuz qüdrətini və sənətini göstərən nümunələrdəndir. Bir ayədə belə buyurulur:

***Sizin yaradılışınızda və (Allah`ın yer üzünə) yaydığı canlılarda qəti iman gətirmiş insanlar üçün neçə-neçə dəlillər vardır. (Casiyə surəsi, 4)***





Bir tikili və ya sənət əsərindəki möhtəşəmliyi anlamaq və təqdir etmək üçün çox vaxt həmin əsər və ya tikili haqqında hərtərəfli məlumat əldə etməli, onun üzərində düşünməliyik. Məsələn, Misir piramidaları haqqında hərtərəfli məlumatı olmayan birisi bunları sadəcə səhranın ortasındakı daş yığını kimi görər, hətta nə üçün dünyanın 7 möcüzəsindən biri olduğunu anlamaya bilər. Ancaq bu piramidaların hər birinin təqribən 2.5 ton ağırlığında, 2.3 milyon daş blokdan ibarət olduğunu, piramidaların həmin ərazidə tikilməsində istifadə edilən həndəsə biliyi, daşların kəsilməsindəki dəqiqlik, tikilinin nəhəng ölçüsü və bu piramidaların tikildiyi dövrdəki şərait və texnologiyanı öyrəndikdə, həqiqətən, möcüzə olduqlarını anlayar. Piramidanın interyeri, daxilindəki dəhlizlər və bir çox sirli cəhəti öyrəndikdə isə bu möcüzələrə olan heyranlığı daha da artar.

Bu, mükəmməl xarici görünüşü ilə bərabər bir çox möcüzəvi xüsusiyyətə malik insan orqanizminə də aiddir. Əgər insanlar təfərrüatları öyrənməsə və bunlar üzərində düşünməsə, hər an gözünün önündə olan möcüzələrin fərqinə varmaz. Halbuki, qarşıdan gələn avtomobilin onu vuracağından qorxduqda, qripə yoluxduqda, qan təzyiqi qalxdıqda və ya bir dostu ilə görüşüb salamlaşdıqda hər insanın orqanizmində qeyri-adi hadisələr baş verir. Saniyələr, hətta saniyədən də az müddət ərzində orqanizmdə gözlə görünməyəcək qədər kiçik molekullar arı kimi işləyərək insanın özünün belə anlamadığı bilik və peşəkarlıq tələb edən mürəkkəb işlər görürlər.

Bütün kainatı, canlıları və insanı yaradan Allah, şübhəsiz ki, bu qüsursuz sistemləri və möhtəşəm qabiliyyətləri olan molekulları bir məqsədlə yaratmışdır. Buna görə, ağıl və vicdan sahibi hər insan Allah’ın yaratmasındakı möcüzələri öyrənməli və bunlar üzərində düşünməlidir. Bunları öyrənmək bu möcüzələri yaradan Rəbbimizin sonsuz gücünü, elmini, ağlını, böyüklüyünü və əzəmətini daha yaxşı qavramağımıza səbəb olur. Allah’ın ayədə bildirdiyi kimi:

**“...Allahdan Öz bəndələri içərisində ancaq alimlər qorxar...” (Fatir surəsi, 28)**

İnsan Allah’ın yaratdığı varlıqdır. Orqanizmində atomlardan ən kiçik molekullarına qədər hər şey Allah’ın elmi ilə hərəkət edir və kainatdakı bütün varlıqlar kimi Onun gücünə boyun əymişdir.



# Mükəmməl yaradılışdakı məqsəd

# CAHİLİYYƏ CƏMİYYƏTİNDƏ EVDAR QADINLARIN QISQANCLIĞI







Cahiliyyə cəmiyyətində qısqanclıq hökm sürür. Ancaq qeyd etmək lazımdır ki, bu xüsusiyyət cahiliyyə cəmiyyətində müsbət xüsusiyyət kimi qəbul edilir. Qısqanclığı sevgi və sədaqət əlaməti kimi göstərməyə çalışırlar. Əgər bir insan sevdiyini qısqanmırsa, onların fikrincə, bu, əsl sevgi deyil. Bu yanlış anlayışa əsasən, insanın qarşı tərəfin sevgisindən razı qalması üçün bütün insanlar arasında ancaq ona sevgi bəsləməlidir.

Halbuki, bu, çox səhv düşüncədir. Çünki hər şeydən əvvəl, sevgi çox üstün duyğu və əxlaqi xüsusiyyətdir. İnsanın sevgidə qısqanclıq etməsi Quran əxlaqına uyğun deyil. İnsan sevdiyi şəxsə sevgisini sədaqəti, bağlılığı, şəfqəti, gözəl sözləri və rəftarı ilə göstərir. Bu da qarşı tərəfdə sevildiyinə dair qəti fikir formalaşdırır. Lakin insanın özündən başqa heç kimsənin sevilməsini istəməməsi eqoistlikdir.

Cahiliyyə cəmiyyətində, xüsusilə də ailə həyatında qısqanclığa görə insanlar çox sıxıntı çəkirlər. Həyat yoldaşlarının analarına, atalarına, bacılarına, qardaşlarına, dostlarına və hətta uşaqlarına bəslədiyi sevgi belə eqoist xarakterli insanlara sıxıntı verir. Belə insanlar heç kimə özlərindən artıq və özlərinə olan qədər sevgi bəslənməsini istəmirlər.









Evdar qadınlardakı qısqanclığın ikinci növü isə cahiliyyə cəmiyyətindəki evlilik sisteminin yanlışlığını bilmədiklərindən qaynaqlanır. Çünki təməli Allah rizasına, Allah qorxusuna və Allah sevgisinə əsaslanmayan heç bir evlilikdə əsl sevgi və sədaqət olmur. Cahiliyyə cəmiyyətindəki qadınlar da bu mühüm həqiqəti dərk etdiklərinə görə, hər an aldadılmaq, ikinci plana atılmaq və ya unudulmaq qorxusu ilə yaşayırlar. Odur ki, şübhələndikləri hər hadisədən narahat olur və qısqanclıq edirlər.

Bu problemi həll etmək üçün əl atdıqları yollar isə vəziyyəti yaxşılaşdırmaq əvəzinə daha da çətinləşdirir. Səbəbsiz yerə küsmək və tərslik etməklə qarşı tərəfə mesaj verməyə çalışırlar. Hər an əlaqəsiz bir hadisədən şübhələnərək xəyali ssenarilər qurur və qurduqları ssenarilər əsasında kəskin qərarlar verirlər. Bütün bu hərəkətlər isə həyatlarını daha da sıxıntılı edir. Bundan əlavə, istədiklərinin tam əksinə, qarşı tərəfi özlərindən bir az da uzaqlaşdırırlar. Çünki nə vaxt, hansı hadisədən nə nəticə çıxaracağı bilinməyən bir insanla yaşamaq çox narahatlıq verir. Odur ki, evdar qadınların qısqanclığı, əsasən, ailələrinin dağılması ilə nəticələnir.

Halbuki, bütün bunların həlli çox asandır. Quranda hər insanın nəfsində qısqanclıq hissi olması, ancaq nəfsini bu hissdən təmizləməyin doğru yol olduğu bildirilmişdir:

***... Ancaq nəfslərdə qısqanclıq həmişə mövcuddur. Əgər siz yaxşı dolanıb çəkinsəniz, (bu sizin üçün daha yaxşı olar). Şübhəsiz ki, Allah etdiyiniz hər bir işdən xəbərdardır! (Nisa surəsi, 128)***

Ona görə də Quran əxlaqı ilə yaşayan mömin qısqanclıq etməz. Çünki Allah qorxusundan qaynaqlanan qarşılıqlı sədaqət və etibar hissləri gərginliyin əmələ gəlməsini qarşısını alır.

# GÖZƏL SÖZÜN VƏ GÖZƏL ÜSLUBLA DANIŞMAĞIN ƏHƏMİYYƏTİ

İnsanları tanımaqda mühüm rol oynayan cəhətlərdən biri də onların danışıq üslubudur. Düşüncə tərzi, inanclar, fikir və düşüncələr sözlərlə ifadə edilir. İnsan qəlbində hiss etdiklərini, fikrindəkiləri, istəklərini, ideallarını və ya qorxularını istər-istəməz danışığında əks etdirir. Ona görə, bir insanın ağıllı və vicdanlı olub-olmadığı, əsasən, dediyi sözlərdən üzə çıxır. Dürüst, səmimi, etibarlı, doğru danışan, yoxsa saxtakar, pisniyyətli, yalan danışan adam olduğu da danışığından başa düşülür.

Danışıq üslubunun insanları tanıdan cəhət olduğu el arasında da məlumdur. Bir çox məsələdə bir nəfər haqqında qərar verərkən, əvvəlcə, onun danışığı əsas götürülür. Bunu iş müsahibələrində görürük. İşə götürənlər iş üçün müraciət edənlərin yazılı məlumatlarından əlavə, bu insanlarla bir neçə dəfə üzbəüz görüşüb müxtəlif mövzular haqqında onlardan məlumat alırlar. Bu müsahibələr nəticəsində həmin şəxsin xarakterinə aid işə götürəndə təsəvvür formalaşır.

Danışığın insanların xarakterini üzə çıxaran mühüm amillərdən olduğunu hər sahədə insanlara ən doğru məlumatı Quran bizə bildirir. Allah ***"Əgər Biz istəsəydik, onları sənə göstərərdik, sən də onları üzlərindəki əlamətlərdən tanıyardın. Sən onları danışıq tərzlərindən mütləq tanıyacaqsan. Allah sizin əməllərinizi bilir" (Muhəmməd surəsi, 30)*** ayəsi ilə danışıq üslubunun qeyri-səmimi insanları tanıdan mühüm xüsusiyyət olduğunu bildirmişdir. Danışıq tərzi mənfi xarakterli, bədniyyət, ikiüzlü insanları ifşa etdiyi kimi, gözəl əxlaqlı, xoşxasiyyət, inanclı insanların da tanınmasında mühüm ölçüdür. Qəlbində xalis iman olan insan təbii olaraq ancaq möminlərə xas üslubla, yəni müsəlman kimi danışır. Müsəlman kimi danışmaq insanın səmimiliyini, Allah`a sevgisini, bağlılığını, hörmət dolu qorxusunu üzə çıxaran mühüm mömin əlamətlərindəndir. Ona görə, üslub fərqi inananlarla inkar edənləri bir-birindən fərqləndirən ən əsas xüsusiyyətlərdən biridir.

Allah səmimiliklərinə görə möminləri ən gözəl, ən doğru, ən hikmətli şəkildə danışdırır. Bu həqiqəti bilən bir mömin çox itaətkar və rahatdır. Din əxlaqı ilə yaşamayan insanlar isə qəlblərindəki pisliyin danışıqları ilə üzə çıxmasından narahat olurlar. Ancaq nə qədər ehtiyatlı olsalar da, danışıqlarının onları ələ verməsinin qarşısını ala bilmirlər. Çünki gözəl söz söyləmək praktika və ya diqqətlə deyil, ancaq səmimi imanla qazanılan xüsusiyyətdir.



Bu, Allah`ın qanunu və möminlər üçün yaratdığı asanlıqdır.

Gözəl söz söyləməyin inananlar üçün başqa əhəmiyyəti də bundan ibarətdir: Allah möminləri haqq dini və gözəl əxlaqı başqalarına da təbliğ etməklə məsul etmişdir. Ona görə, insanlara tək Allah`ın varlığını və ucalığını izah edərək onları Quran əxlaqına dəvət etməklə məsul olan möminlər üçün danışmaq böyük ibadətdir. Din əxlaqı ilə yaşayan və Allah`ın böyüklüyünü qavrayan insanların din əxlaqından uzaq yaşayan cahil insanlara hiss etdiklərini və düşündüklərini səmimi şəkildə ifadə etmələri bir çox insanın qəlbinin İslama isinməsinə və Allah qorxusu ilə dolmasına səbəb ola bilər. Bu isə Allah qatında çox xeyirli əməldir. Odur ki, iman gətirənlər Allah`dan həmişə ağıl, hikmət və xeyirli danışıq üslubu istəyərlər. Danışdıqda Allah`ı zikir edər, insanlara sözün ən gözəlini söyləyər, onlara din əxlaqını təbliğ edər, yaxşılığı əmr edib pislikdən çəkindirərlər. Ona görə, danışmaq möminlər üçün həyatlarının sonuna qədər savab qazandıran ibadətə çevrilir.

***"Allah`a tərəf çağıran, yaxşı iş görən və: "Mən müsəlmanlardanam!" – deyən kəsdən daha gözəl danışan kim ola bilər?!" (Fussilət surəsi, 33)*** ayəsi ilə bildirildiyi kimi, dünyada ən gözəl sözlə danışan insan Quran əxlaqı ilə yaşamağa insanları dəvət edən, yəni müsəlman kimi danışan insandır. Möminlər Allah`ın rizasına uyğun üslubla danışaraq Onun rəhmətinə və cənnətinə qovuşmağı ümid edirlər. Ona görə, səmimi qəlbdən Rəbbimizə üz tutan hər mömin bu məlumatlar əsasında düşünərək gözəl üslubla danışmaq üçün cəhd etməli və ömrünün sonuna qədər bu ibadətdə qətiyyətli olmalıdır.

Düşünən İnsan, Sentyabr 2013

# Fosillər təkamülü təkzib edir





## SÜMÜKLÜ DURNABALIĞI

Dövr: Senozoy erası, Eosen dövrü
Yaşı: 54-37 milyon il
Bölgə: Qrin River, Vayominq, ABŞ

İndiyədək əldə edilən yüzlərlə sümüklü durnabalığı fosili bu canlıların milyon illərdir heç bir dəyişikliyə məruz qalmadığını göstərir. Şəkildəki 54-37 milyon illik sümüklü durna balığı fosili ilə dövrümüzdə dənizlərdə yaşayan durnabalıqları arasında heç bir fərq yoxdur. Bu, darvinistlərin açıqlaya bilmədiyi faktdır və yaradılışı sübut edir.









Düşünən İnsan, Sentyabr 2013





## SUMAQ YARPAĞI

Dövr: Senozoy erası, Eosen dövrü
Yaşı: 54-37 milyon il
Bölgə: Qrin River, Yuta, ABŞ

Bütün canlılar kimi bitki növləri də mürəkkəb quruluş və sistemləri ilə tam şəkildə ortaya çıxıblar, yəni xüsusiyyətləri ilə birlikdə yaradılıblar. Fosil qeydlərindəki yüz minlərlə bitki fosili bunu sübut edir. Təkamülçülərin nəzəriyyələrinə dəlil kimi göstərəcəyi yarı şam-yarı söyüd, yarı yosun – yarı kol, yarı orxideya-yarı qərənfil fosillər yoxdur. Ancaq söyüdün daima söyüd, küknarın küknar, şam ağacının şam ağacı, yosunların yosun, qovaq ağacının qovaq, çinar ağacının çinar olduğunu göstərən yüz minlərlə fosil var. Hər birinin milyon illər yaşı olan bu fosillər təkamülü təkzib edir. 54-37 milyon illik sumaq fosili də darvinistlərin yalanlarını ifşa edən dəlillərdən biridir.



Düşünən İnsan, Sentyabr 2013







## XƏRÇƏNG

Dövr: Senozoy erası, Eosen dövrü
Yaşı: 50 milyon il
Bölgə: Oreqon, ABŞ

Fosil qeydlərinin ən əsas xüsusiyyətlərindən biri canlıların geoloji dövrlər boyu heç bir dəyişikliyə məruz qalmadığını göstərməsidir. Başqa sözlə, bir canlı növü fosil qeydlərində necə üzə çıxırsa, bu növun nəsli kəsilənə qədər və ya dövrümüzə gəlib çatana qədər on milyonlarla, hətta yüz milyonlarla il boyu heç dəyişməməsi, quruluşunu qoruyub saxlamasıdır. Bu, canlıların təkamül keçirmədiyinin açıq-aşkar dəlilidir. 50 milyon il ərzində bütün xüsusiyyətlərini eynilə qoruyub saxlamış, hər hansı dəyişikliyə məruz qalmamış xərçənglər də bu dəlillərdən biridir. Dövrümüzdə yaşayan xərçənglərlə milyon illər əvvəl yaşayan xərçənglər eynidir.







Qütblərdəki buzlu sularda yaşayan balıqların donmamağının səbəbini heç düşündünüzmü? Bu balıqlar dərilərindəki buz kristallarının istiliyini-20°C-yə qədər yüksəldən zülalı hasil edən genə sahibdirlər. Bu zülal buz kristallarındakı oksigen molekullarına bağlanaraq canlının donmasının qarşısını alır.